# QARABAĞ AZƏRBAYCANDIR!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 105 (6305) 17 iyun 2021-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# Tarixi Şuşa bəyannaməsi: Azərbaycan-Türkiyə münasibətləri ən uca zirvədə!

Bax 2



## Hikmət Hacıyev: "Azərbaycan beynəlxalq təhlükəsizliyin təmin olunmasında NATO-nun rolunu alqışlayır"



*Azərbaycan NATO ilə münasibətlərin inkişafı üzrə fəal təşəbbüslərlə çıxış edib. Azərbaycanla NATO arasında siyasi dialoq ən səmərəli mexanizmlərdəndir. Ölkəmiz təşkilatla əməkdaşlıq və dialoqun...*

Bax 11

## "Şuşa Bəyannaməsi mühüm tarixi və strateji əhəmiyyət kəsb edir"

Bax 10



Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa...

## Rusiyadan proqnoz: Moskva Şuşa bəyannaməsində hansı rolu alacaq?



Bax 12

"Mən dünyada baş verən siyasi proseslәri məntiqi nəticə ilə qiymətləndirirəm. İlk əvvəl Avropada, Asiyada, Yaxın Şərqdə və xüsusilə Cənubi Qafqaz makroregionu da...

## Polkovnik: "Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə hərbi-strateji əməkdaşlığının perspektivləri baxımından mühüm əhəmiyyət kəsb edir"



Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi iki ölkə arasında hərbi-strateji əməkdaşlığın perspektivləri...

Bax 13

## "Kommersant": Türkiyə və Azərbaycan Cənubi Qafqazda yeni alyans yaratdı

*Türkiyə və Azərbaycan Cənubi Qafqazda yeni alyans yaratdı. AZƏRTAC xəbər verir ki, "Kommersant" qəzetində Serqey Strokanın məqaləsi dərc olunub. Materialda Türkiyə Prezidenti...*

Bax 11



От всей Шуши

Турция и Азербайджан создали новый альянс на Южном Кавказе

Газета "Коммерсантъ" №101 от 16.06.2021, стр. 6

## Şuşa Bəyannaməsi Qafqazda nəyi dəyişəcək? - ermənilərə növbəti şok (SƏS TV - CANLI)




## Paşinyan koalisiyalı hökumət formalaşdırmağa cəhd edəcək



Bax 14

## Erməni ekspert: Ərdoğanın Şuşa səfəri göstərdi ki, Türkiyə öz vədini gerçəkləşdirəcək gücdədir



Bax 11

## "Fənərbaxça"dan Edin Visca əməliyyatı!



Bax 16

# Tarixi Şuşa bəyannaməsi: Azərbaycan-Türkiyə münasibətləri ən uca zirvədə!







*İlham Əliyev: “Bu gün müttəfiqlik haqqında imzalanmış birgə Bəyannamə əlaqələrimizi ən yüksək zirvəyə qaldırır”*







*Rəcəb Tayyib Ərdoğan: “Şuşa Bəyannaməsi ilə əlaqələrimizin yeni dövrdəki yol xəritəsini müəyyənləşdirdik”*

15 iyun2021-ci il - Tarixi Şuşa Bəyannaməsi - dünyada analoqu olmayan qardaşlığın, türk dünyasının Ulu Öndəri Mustafa Kamal Atatürkün “Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir”, Ümummilli Lider Heydər Əliyevin “Bir millət iki dövlət” ifadələri Azərbaycan-Türkiyə münasibətlərinin sarsılmazlığının, əbədiliyinin, sübutudur. Şuşa bəyannaməsinə kimi hər iki dövlət başçıları - Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıya və Türkiyəyə səfərləri çərçivəsində səsləndirilən fikirlər və imzalanan çox sayda sənədlər bir daha dünyaya nümayiş etdirir ki, Azərbaycan-Türkiyə qardaşlığı sarsılmazdır və böyük geosiyasi və geoiqtisadi potensiala malik bu iki ölkənin strateji əməkdaşlığı regionda sülhün və təhlükəsizliyin təmin edilməsinə, habelə bölgədə iqtisadi inkişafın daha da gücləndirilməsinə yönəlmişdir.

Bu, danılmaz faktordur ki, Azərbaycan ilə Türkiyə arasında əlaqələrin böyük tarixi var. Ortaq kök, dil, din birliyi, oxşar mədəniyyət, adət və ənənələr. Ən əsas amil isə ən çətin anlarda bir-birinin yanında olmaq. Qeyd edək ki, Türkiyə və Azərbaycan öz tarixlərinin ən mürəkkəb dövrlərində bir-birinə dəstək olduqlarını nümayiş etdirmişlər. Belə ki, 1918-ci ildə Nuru Paşanın komandanlığı ilə Türk Qafqaz İslam Ordusunun uzun mübarizələr və müharibələr nəticəsində Bakını xilas etməsi Azərbaycan üçün önəmli dönüş nöqtəsi idi. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dediyi kimi: “Türk ordusunun Azərbaycana, Bakıya gəlməsi, Azərbaycanı daşnakların təcavüzündən xilas etməsi hər bir azərbaycanlının qəlbində yaşayır. Azərbaycan xalqı həmin ağır dövrdə türk xalqının ona göstərdiyi köməyi heç vaxt unutmayacaqdır”. Anadoluda Qazi Mustafa Kamal Atatürkün öndərliyi ilə aparılan milli mücadiləyə azərbaycanlılar maddi və mənəvi yardım göstərmişlər.

Ardı Səh. 3

# Tarixi Şuşa bəyannaməsi: Azərbaycan-Türkiyə münasibətləri ən uca zirvədə!



*İlham Əliyev: "Bu gün qədim şəhərimiz olan Şuşadan verilən açıqlamalar bütün dünyaya səs salacaq, bunun böyük əks-sədası olacaq"*

Əvvəli-Səh-2

### Tarixi Şuşa bəyannaməsi - Türkiyə-Azərbaycan qardaşlığının göstəricisi

2021-ci il iyunun 15-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Ermənistanın işğalından azad olunan Şuşa şəhərinə tarixi səfəri və Qarabağın ürəyi olan Şuşada tarixi bəyannaməyə imza atması bu qardaşlığın daha möhkəm olduğunun göstəricisidir. Azərbaycan üçün çox önəmli bir tarixdə - Milli Qurtuluş Günündə, Qars müqaviləsindən yüz il sonra iki dost və qardaş ölkə arasında imzalanan müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsini prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan imzaladılar.

Siyasi və tarixi əhəmiyyətə malik Şuşa bəyannaməsində qeyd olunur ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" və Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamları ilə xarakterizə olunan Azərbaycan-Türkiyə münasibətləri öz zirvəsinə yüksəlib və keyfiyyətcə yeni bir mərhələyə qədəm qoyub.



### Prezident İlham Əliyev: "Biz bu gün yeni əlaqələr qurmuşuq və bu bəyannamədə göstərilən bütün müddəalar bizim gələcək işbirliyimizin təminatıdır"

"Bu gün tarixi gündür. Türkiyə Prezidentini Qarabağ torpağında salamlayırıq. Əziz Qardaşım Azərbaycanda dəfələrlə olub. Ancaq ilk dəfə Qarabağ torpağında, Şuşada biz bir yerdəyik. Bu səfərin tarixi əhəmiyyəti var".

Bu fikri Prezident İlham Əliyev Şuşada mətbuata bəyanatı zamanı söyləyib. Dövlətimizin başçısı deyib: "Bu gün müttəfiqlik haqqında imzalanmış birgə Bəyannamə əlaqələrimizi ən yüksək zirvəyə qaldırır. Bəyannamənin adı öz-özlüyündə hər şeyi deyir. Biz bu gün keyfiyyətcə yeni əlaqələr qurmuşuq və bu bəyannamədə göstərilən bütün müddəalar bizim gələcək işbirliyimizin təminatıdır".



*"Bu gün Şuşada dalğalanan Azərbaycan və Türkiyə bayraqlarının ölkələrimizin birliyini nümayiş etdirir"*

### Prezident Rəcəb Tayyib Ərdoğan: "Şuşa bəyannaməsi ilə əlaqələrimizin yeni dövrdəki yol xəritəsini müəyyənləşdirdik"

"Şuşa Bəyannaməsi ilə əlaqələrimizin yeni dövrdəki yol xəritəsini müəyyənləşdirdik". Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iyunun 15-də Şuşada mətbuata bəyanatında bildirib. Şuşa Bəyannaməsinin imzalanmasının tarixi əhəmiyyətini xüsusi vurğulayan Prezident Ərdoğan deyib: "Türkiyə ilə Azərbaycan arasındakı bu bəyannamə bir sıra məsələləri əhatə edir. Gələcəklə bağlı addımları atarkən, artıq təkcə iki ölkəni deyil, bölgəni əhatə edən bir qətiyyətin bu sənəddə ifadə olunduğunu görürük".

Göründüyü kimi, bu tarixi sənəd iki qardaş ölkənin ümumi maraqlarının qorunmasında imkanların birləşdirilməsinin, eləcə də ortaq maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsinin məntiqi nəticəsi olaraq ölkələrimizin regional və beynəlxalq rolunu, çəkisini daha da artıracaq.

Ermənistanın 30 illik təcavüzünə son qoyulmasında, işğal olunmuş torpaqların azad olunmasında, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində Türkiyənin mənəvi-siyasi dəstəyi xalqımız tərəfindən yüksək qiymətləndirilir. Hazırda Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində ölkələrimizin birgə təşəbbüsləri bu sahədə səylərin artırılmasının zəruriliyini göstərən ən gözəl nümunədir. Eyni zamanda, Qarabağda Türkiyə-Rusiya Birgə Mərkəzinin fəaliyyəti regionda sülhün bərqərar olunmasının təsirli mexanizmi kimi diqqət çəkir.

Ardı Səh. 4

# Tarixi Şuşa bəyannaməsi: Azərbaycan-Türkiyə münasibətləri ən uca zirvədə!



nə qarşılıqlı dəstək verirlər.

Sənəddə birgə milli mənafelər baxımından siyasi, hərbi və təhlükəsizlik sahələrində əlaqələndirilmiş və birgə fəaliyyətlərin təşviq edilməsi də xüsusi yer tutur. Tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, birgə məsləhətləşmələr aparılması, bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirilməsi, BMT Nizamnaməsinə uyğun olaraq bir-birinə lazımi yardım göstərməsi, Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyətinin təşkili nəzərdə tutulur.

### Azərbaycan və Türkiyə arasında əlaqələrin yüksək səviyyəsi: 44 günlük Vətən müharibəsi zamanı dünya bir daha bunun şahidi oldu

Azərbaycan və Türkiyə arasında əlaqələrin yüksək səviyyəsi ümumilikdə regionun tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir. 44 günlük Vətən müharibəsi zamanı dünya bir daha bunun şahidi oldu. Müharibənin ilk günlərindən qardaş Türkiyə Azərbaycana siyasi-mənəvi dəstək verdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan açıq və birmənalı bəyanatlar səsləndirərək, bu müharibədə Azərbaycanın tək olmadığını, Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu bildirdi. Bu, gücümüzə güc qatdı, Qarabağ Zəfərində mühüm rol oynadı. Xüsusən Rəcəb Tayyib Ərdoğanın Bakıda Azadlıq meydanında keçirilən Zəfər paradında Prezident İlham Əliyevlə yan-yana dayanması ölkələrimizin birliyini, xalqlarımızın qardaşlığını bir daha bütün dünyaya nümayiş etdirdi. Və Azərbaycan ilə Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında imzalanan tarixi Şuşa Bəyannaməsi bütün dünyaya bir mesaj olaraq Türkiyə-Azərbaycan, "sevinci və kədəri bir" olan, "bir millət, iki dövlət"in qardaşlıq birliyinin gücünü göstərdi.





Əvvəli-Səh-3

Şuşa Bəyannaməsi müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutan, milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirən hər iki ölkə tərəfindən müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyənləşdirmək baxımından mühüm əhəmiyyət kəsb edir. Türkiyə və Azərbaycan qarşılıqlı maraq doğuran beynəlxalq məsələlər üzrə həmrəylik və qarşılıqlı dəstək nümayiş etdirərək eyni mövqedən çıxış etməklə ikitərəfli əməkdaşlığın dərinləşdirilməsi ilə yanaşı, həmçinin BMT, ATƏT, Avropa Şurası, TDƏŞ, İslam Əməkdaşlıq Təşkilatı daxil olmaqla, beynəlxalq və regional təşkilatlar çərçivəsində bir-biri-



### Azərbaycan Prezidenti İlham Əliyev: "Bu gün qədim şəhərimiz olan Şuşadan verilən açıqlamalar bütün dünyaya səs salacaq, bunun böyük əks-sədası olacaq"

"Biz bu gün Şuşada görüşürük. Bu gün bütün Azərbaycan xalqının, türk xalqının gözü buradadır, dünyanın gözü buradadır. Azərbaycan bu səfər səbirsizliklə gözlənilirdi və böyük maraq doğurur".

Ardı Səh. 5

# Tarixi Şuşa bəyannaməsi: Azərbaycan-Türkiyə münasibətləri ən uca zirvədə!











Əvvəli-Səh-4

Bu fikirləri Prezident İlham Əliyev Şuşada mətbuata bəyanatında deyib: "Bu gün qədim şəhərimiz olan Şuşadan verilən açıqlamalar bütün dünyaya səs salacaq, bunun böyük əks-sədası olacaq. Bu səfərin tarixi əhəmiyyəti bundan sonra uzun illər ərzində dillərdə olacaqdır. Şuşa keçən il noyabrın 8-də işğaldan azad edildi. Şuşa şəhərini azad etmək böyük qəhrəmanlıq tələb edirdi. Şuşaya gələn hər bir insan sıldırım qayaları görərkən, görür ki, bu alınmaz qala sayılan şəhəri azad etmək böyük qəhrəmanlıq, peşəkarlı, şücaət tələb edirdi".

Bu gün Şuşada dalğalanan Azərbaycan və Türkiyə bayraqlarının ölkələrimizin birliyini nümayiş etdirdiyini vurğulayan Prezident İlham Əliyev bildirib ki, İkinci Qarabağ müharibəsi başlanan ilk gündən, ilk saatlardan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana birmənalı, qəti və açıq dəstək ifadə edib. Müharibənin ilk saatlarından Türkiyə Prezidenti bildirdi ki, Azərbaycan tək deyil. Bu, həm bizi ruhlandırdı, eyni zamanda, müdaxilə etmək fikrində olan bütün qüvvələri, dairələri dayandırdı.

### Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan: "Bizim gücümüz Azərbaycanın gücüdür"

"Pandemiyaya baxmayaraq, kənd təsərrüfatından enerjiyə, nəqliyyatdan turizmə, müdafiədən təhsil və mədəniyyətə qədər hər sahədə əməkdaşlığımızı inkişaf etdirmək üçün birgə səylərimizi qətiyyətlə davam etdiririk. Bütün bunlardan başqa, müdafiə sənayesi sahəsində əlaqələrimizi texnologiya transferi və birgə istehsal layihələri ilə daha da gücləndiririk". Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iyunun 15-də Şuşada mətbuata bəyanatında söyləyib.

İkinci Qarabağ müharibəsində pilotsuz uçuş aparatlarının önəmini xüsusi vurğulayan Türkiyə Prezidenti deyib: "Müdafiə sənayesi sahəsində əlaqələrimiz bundan sonra daha fərqli şəkildə inkişaf edəcək. Bu fərqli inkişafla yanaşı, Azərbaycan bir bazar deyil, eyni zamanda, bu prosesdə istehsal mərkəzi olma imkanı da əldə edəcək. Bizim gücümüz Azərbaycanın gücü, Azərbaycanın gücü də bizim gücümüzdür".

Bəli, bu tarixi sənəd iki qardaş ölkənin ümumi maraqlarının qorunmasında imkanların birləşdirilməsinin, eləcə də ortaq maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsinin məntiqi nəticəsi olaraq ölkələrimizin regional və beynəlxalq rolunu, çəkisini daha da artıracaq.

Dövlət başçımızın dediyi kimi: "Bu gün müttəfiqlik haqqında imzalanmış birgə Bəyannamə əlaqələrimizi ən yüksək zirvəyə qaldırır. Bəyannamənin adı öz-özlüyündə hər şeyi deyir. Biz bu gün keyfiyyətcə yeni əlaqələr qurmuşuq və bu bəyannamədə göstərilən bütün müddəalar bizim gələcək işbirliyimizin təminatıdır".

**RƏFİQƏ KAMALQIZI**

# “Azərbaycan hər zaman İslam ölkələri arasında həmrəyliyin gücləndirilməsi istiqamətində səylər göstərib”

## *Prezident İlham Əliyevin İƏT-in Elm və Texnologiya üzrə ikinci Zirvə toplantısında videoformatda çıxışı təqdim olunub*

***Iyunun 16-da Islam Əməkdaşlıq Təşkilatının Elm və Texnologiya üzrə onlayn formatda ikinci Zirvə toplantısı keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin videoformatda çıxışı təqdim edilib.***



Prezident İlham Əliyev öz çıxışında qeyd edib ki, Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı ailəsinin fəal üzvüdür və həm ikitərəfli əsasda, həm də beynəlxalq təşkilatlar çərçivəsində üzv dövlətlərlə sıx əməkdaşlıq edir:

-Hörmətli dövlət və hökumət başçıları.

Hörmətli Baş katib.

İslam Əməkdaşlıq Təşkilatının Elm və Texnologiya üzrə 2-ci Zirvə toplantısının təşkilinə görə Birləşmiş Ərəb Əmirlikləri hökumətinə və İslam Əməkdaşlıq Təşkilatının Baş Katibliyinə təşəkkürümü bildirmək istəyirəm.

Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı ailəsinin fəal üzvüdür və həm ikitərəfli əsasda, həm də beynəlxalq təşkilatlar çərçivəsində üzv dövlətlərlə sıx əməkdaşlıq edir.

Son bir neçə il ərzində Azərbaycanda İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin xarici işlər, mədəniyyət, turizm, təhsil, əmək və digər nazirləri səviyyəsində 10-a yaxın görüş keçirilib.

Azərbaycan hər zaman İslam ölkələri arasında həmrəyliyin gücləndirilməsi istiqamətində səylər göstərib. 2017-ci ildə 54 dövlətin iştirakı ilə IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etməyimiz bunun növbəti təzahürü idi. Bununla yanaşı, biz, İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin vətəndaşları üçün ölkəmizdə təhsil almaq imkanı verən təqaüd proqramına da başlamışıq.

Biz Ermənistanın hərbi təcavüzü ilə bağlı İslam Əməkdaşlıq Təşkilatı tərəfindən Azərbaycanın ədalətli mövqeyinin ardıcıl şəkildə dəstəklənməsini yüksək qiymətləndiririk. İslam Əməkdaşlıq Təşkilatı tərəfindən 1994-cü il Kasablanka Zirvə görüşündən bu günə qədər Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləyən, ölkəmizin suverenliyi və ərazi bütövlüyünü dəstəkləyən 80-dən artıq qətnamə qəbul edilib. Bu mənada Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü ilə bağlı 2016-cı ildə İslam Əməkdaşlıq Təşkilatının Təmas Qrupunun təsis edilməsi xüsusi qeyd edilməlidir.

Azərbaycan da öz növbəsində hər zaman İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələri dəstəkləyib, İslam ölkələri arasında daha güclü həmrəyliyin və əməkdaşlığın təmin edilməsi naminə səylər göstərib.

COVID-19 pandemiyası dünya üçün misilsiz çağırışlar yaradıb. Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan Hərəkatın koronavirusla mübarizəyə həsr edilmiş Zirvə toplantısının keçirilməsi təşəbbüsünü irəli sürmüş və 2020-ci ilin may ayında həmin tədbiri uğurla təşkil etmişdir. Biz, həmçinin 2020-ci ilin dekabr ayında BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyasının keçirilməsinin təşəbbüskarı olmuşuq.

Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə töhfəsi edib və koronavirusla əlaqədar 30-dan artıq ölkəyə, o cümlədən İslam Əməkdaşlıq Təşkilatına üzv olan bir sıra dövlətlərə humanitar və maliyyə yardımı göstərib.

“Peyvənd millətçiliyi”, inkişaf etmiş və inkişafda olan ölkələr arasında peyvəndlərə çıxışla bağlı qeyri-bərabərlik bizi dərindən narahat etməkdə davam edir. Beynəlxalq hesabatlara əsasən, bu günə qədər dünyada mövcud olan peyvənd dozalarının 82 faizi zəngin ölkələr tərəfindən alınmış, peyvəndlərin yalnız 0,3 faizi azgəlirli ölkələrin payına düşmüşdür.

Biz bir daha inkişaf etmiş ölkələri və beynəlxalq donor təşkilatlarını inkişaf etməkdə olan, xüsusilə ən az inkişaf etmiş ölkələrə zəruri maliyyə yardımı göstərməyə çağırırıq.

Bildiyiniz kimi, Ermənistan 30 ilə yaxın idi ki, ölkəmizin təqribən 20 faiz ərazisini işğal altında saxlayırdı. Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə aparıb. Bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilib. Ermənistan Xocalı soyqırımını törədib. Xocalı soyqırımı 13 ölkə tərəfindən tanınıb.

Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurası tərəfindən 1993-cü ildə qəbul edilmiş dörd qətnamə, Qoşulmama Hərəkatının bəyannamələri, İslam Əməkdaşlıq Təşkilatının qətnamələri, ATƏT və digər beynəlxalq təşkilatların müvafiq qərarları münaqişənin həllinin hüquqi bazasını təşkil edirdi. Lakin Ermənistan beynəlxalq ictimaiyyətin tələblərinə məhəl qoymayaraq, torpaqlarımızı əbədi olaraq işğal altında saxlamağa cəhd edirdi. Ermənistan 2020-ci ilin iyul, avqust və sentyabr aylarında üç dəfə dövlət sərhədi və keçmiş təmas xətti boyu hərbi təxribatlara əl ataraq günahsız mülki əhalinin qətlə yetirilməsinin və müharibənin alovlanmasının səbəbkarı oldu.

Ötən ilin sentyabr ayında Ermənistanın irimiqyaslı hərbi hücumuna cavab olaraq Azərbaycan əks-hücum əməliyyatına başladı və işğal altında olan ərazilərin böyük hissəsini azad etdi.

44 günlük Vətən müharibəsində tam məğlubiyyətə uğrayan Ermənistan 2020-ci ilin 10 noyabr tarixində kapitulyasiya aktına imza ataraq Azərbaycanın işğal altında olan digər ərazilərindən qoşunlarını çıxarmağa məcbur oldu.

Azərbaycan özü BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi qətnamələrinin icrasını təmin etdi. Beləliklə, Azərbaycan 30 illik münaqişəyə son qoydu və hərbi-siyasi yollarla ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi.

Biz müharibə zamanı İslam Əməkdaşlıq Təşkilatı tərəfindən nümayiş etdirilən qətiyyətli mövqeyi yüksək qiymətləndiririk. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanı dəstəkləyən bəyanatlarla çıxış edib. Xüsusilə mən müharibənin ilk günlərindən bizə siyasi dəstək ifadə edən Türkiyə, Pakistan və Əfqanıstana minnətdarlığımı bildirmək istəyirəm.

Ermənistan 30 illik işğal dövründə Azərbaycanın işğal olunmuş ərazilərindəki bütün mədəni və dini abidələrimizi məqsədli şəkildə dağıdıb. Ermənistanın işğalı altında olmuş ərazilərdə yerləşən 67 məsciddən 65-i yerlə-yeksan edilib, iki məscidə isə ciddi zərər dəyib və onlar təhqir edilib.

Mən həmkarlarıma bizim şəhər və kəndlərimizin işğaldan əvvəl və sonrakı vəziyyəti ilə bağlı qısa məlumat və fotoşəkillərdən ibarət təsviredici kitab göndərəcəyəm. Orada Azərbaycanın dini və tarixi abidələrinin tamamilə məhv olunması və darmadağın edilməsi öz əksini tapıb.

İslam Əməkdaşlıq Təşkilatı öz qətnamələrində Azərbaycanın keçmiş işğal altında olan torpaqlarında Ermənistan tərəfindən İslam tarixi və mədəniyyət nümunələrinin, ibadət yerlərinin dağıdılması və təhqir edilməsini qətiyyətlə pisləyib.

Fürsətdən istifadə edərək, İslam Əməkdaşlıq Təşkilatının Baş katibi cənab Yusif bin Əhməd əl-Osayminə aprel ayında ölkəmizə səfər etdiyinə və Qələbəmizlə bağlı səmimi təbrikinə görə xüsusi minnətdarlığımı bildirmək istəyirəm.

Baş katib vəzifəsində o, Azərbaycana altı dəfə səfər edib. Bu, onun ölkəmizə olan dəstək və ehtiramının təzahürüdür. Baş katib İslam Əməkdaşlıq Təşkilatının beynəlxalq nüfuzunun artması və üzv dövlətlər arasında həmrəyliyin möhkəmləndirilməsi işinə böyük töhfə verib.

Bu il İslam Əməkdaşlıq Təşkilatının Baş Katibliyi, İslam Əməkdaşlıq Təşkilatının Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü ilə bağlı Təmas Qrupunun üzvləri, habelə ICESCO-nun nümayəndə heyəti Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfər edib və Ermənistanın İslam irsinə qarşı törətdiyi vandalizmin şahidi olub.

Biz Ermənistanın İslam ölkələri ilə münasibətlərini gücləndirmək cəhdlərini müşahidə edirik. Məscidlərdən donuz və inək tövləsi kimi istifadə etmiş və bununla da bütün İslam ümmətinin hisslərini təhqir edən ölkə müsəlman dövlətlərinin və müsəlmanların dostu ola bilməz.

Bugünkü Zirvə toplantısının mövzusu elm və texnologiya olduğundan, vurğulamaq istərdim ki, ölkəmizin elmi və texnoloji potensialının gücləndirilməsi bizim başlıca prioritetlərimiz sırasındadır.

Azərbaycan beynəlxalq kosmik klubun üzvüdür. Bu gün bizim ikisi telekommunikasiya, biri isə Yer səthinin müşahidəsi üçün istifadə olunan üç peykimiz var.

Azərbaycan 2023-cü ildə Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi edəcək ölkə seçilib. Bu, beynəlxalq kosmik icma tərəfindən Azərbaycanın bu sahədə nailiyyətlərinin tanınmasının təzahürüdür.

Bu yaxınlarda Azərbaycanın növbəti onillik üçün sosial-iqtisadi inkişafına dair müəyyən etdiyim beş milli prioritet sırasında rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanının yaradılması da yer alır.

Hökumət innovasiyaların və startap ekosistemlərinin inkişafı ilə bağlı əməli addımlar atır. Azərbaycan Ümumdünya İqtisadi Forumu ilə Dördüncü Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinin Afiləedilmiş Azərbaycan Mərkəzinin yaradılması ilə bağlı saziş imzalayıb.

Mən işğaldan azad olunmuş bütün əraziləri yaşıl enerji zonası elan etmişəm. Biz bərpa və yenidənqurma işlərində ən müasir və innovativ texnologiyalardan istifadə edəcəyik. “Ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyaları tətbiq olunacaqdır.

Biz qardaş İƏT dövlətlərindən olan şirkətlərin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində yenidənqurma prosesində iştirakını görmək istərdik.

Sağ olun.

## Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib



Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iyunun 16-da Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, abidəsi önünə gül dəstəsi qoyub. AZƏRTAC xəbər verir ki, Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim akademik Zərifə xanım Əliyevanın xatirəsi də ehtiramla anılıb, məzarı üzərinə gül dəstəsi qoyulub.

## Şuşada Azərbaycanın və Türkiyənin birinci xanımlarının görüşü olub



İyunun 15-də Şuşada Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğan ilə görüşü olub.

## Anadolu agentliyi Türkiyə Prezidentinin Şuşa səfəri ilə bağlı məlumatları oxucularına müxtəlif dillərdə çatdırıb




Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri, Füzulidə Prezident İlham Əliyev tərəfindən qarşılanması, liderlərin təkbətək görüşü, Şuşa Bəyannaməsinin imzalanması, mədəniyyət paytaxtımızda keçirilən bədii proqram, göstərilən yüksək qonaqpərvərlik və səmimiyyət, səfərlə bağlı digər mühüm məqamlar Anadolu Agentliyi tərəfindən geniş işıqlandırılıb.

AZƏRTAC xəbər verir ki, Anadolu agentliyinin təqdim etdiyi ənənəvi “60 saniyədə bu gün” rubrikasında Türkiyə dövlət başçısının Azərbaycana tarixi səfərindən fraqmentlər yerləşdirilib. Bu rubrikada xəbərlər türk, ingilis, rus və digər dillərdə yayımlanıb.

Səfərin təfərrüatını dünya ictimaiyyətinə geniş şəkildə təqdim edən agentlik diqqətə çatdırır ki, Azərbaycan düşmən tapdağında olan torpaqlarını qətiyyətlə işğaldan azad edib və Böyük Qayıdış üçün fundamental strategiya həyata keçirir. Məlumatlarda, video və fotolarda aydın təsəvvür yaranır ki, prezidentlərin imzaladığı Şuşa Bəyannaməsi qardaşlığın, birliyin, həmrəyliyin rəhni, sülhün və inkişafın qarantıdır.

# Bakı Olimpiya Stadionunda Avropa çempionatının final mərhələsinin Türkiyə-Uels matçı keçirilib

## *Azərbaycan və Türkiyə prezidentləri oyuna baxıblar*



*“Avro-2020”nin A qrupunda yer alan Türkiyə milli komandası iyunun 16-da Bakı Olimpiya Stadionunda Uels yığması ilə qarşılaşıb. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva, ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan oyuna baxıblar.*





# Ərdoğan: “Türkiyə bütün imkanları ilə Azərbaycanın yanındadır və yanında olacaq”

## *Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Milli Məclisdə çıxış edib*

***Azərbaycan Respublikasında rəsmi səfərdə olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iyunun 16-da Milli Məclisdə olub. AZƏRTAC xəbər verir ki, ali qonağı Milli Məclisin sədri Sahibə Qafarova qarşılayıb. Əvvəlcə təkbətək görüş keçirilib.***



Təkbətək görüşdən sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan parlamentdə çıxış edib. Prezident Rəcəb Tayyib Ərdoğan öz çıxışında qeyd edib ki, Qarabağın azad edilməsi Azərbaycanın müstəqil keçən otuz ilinin ən önəmli hadisəsidir:



- Azərbaycan Milli Məclisinin hörmətli sədri.

Əziz millət vəkilləri, xanımlar və cənablar.

Sizləri - müzəffər ölkənin parlamentinin bütün üzvlərini Türkiyədəki 84 milyon qardaşınızın adından bir millət, iki dövlət anlayışı ilə sevgi və bəxtiyarlıqla salamlayıram. Xoşbəxtəm, çünki Can Azərbaycandayam. Xoşbəxtəm, çünki Qarabağı azad etmiş qardaş Azərbaycanın Milli Məclisində sizlərlə birlikdəyəm. Xoşbəxtəm, çünki müstəqilliyinin otuzuncu ilinə çatan Azərbaycandayam. Qarabağın azad edilməsi Azərbaycanın müstəqil keçən otuz ilinin ən önəmli hadisəsidir.

Bu Zəfərlə Qafqazda qanayan bir yara qapanmış, bölgədə davamlı sülh və sabitlik üçün böyük fürsət yaranmışdır. Qafqazdakı sülh və sabitlikdən təkcə Azərbaycan deyil, Ermənistan da daxil olmaqla, bütün bölgə ölkələri, hətta bütün dünya qazanacaq. Biz də azərbaycanlı qardaşlarımızla bölgənin tamamilə inkişafı, rifahın yüksəlməsi, sabitliyin möhkəmlənməsi üçün üzərimizə düşəni yerinə yetirməyə bütün səmimiyyətimizlə hazırıq.

Geridə qoyduğumuz otuz ildə - Qarabağda yaşanan böhranlı dövrdə kimlərin əlinə nə keçdiyi, kimlərin bu işdən qazanclı çıxdığı, kimlərin də itirdiyi çox yaxşı bilinir. Canı yananlar, qanı tökülənlər, acı çəkənlər, maddi və mənəvi olaraq itirənlər ancaq Qarabağda yaşayan insanlardır. Asan deyil, otuz il. Mənim azərbaycanlı qardaşlarım öz məskənlərindən təəssüf ki, otuz ildir köçkün düşüblər. O torpaqlar işğal altında idi. İşğal altındakı həmin torpaqlar otuz il sonra, çox şükür, yenidən sahiblərinə qovuşdu.

Qarabağda otuz ildir davam edən münaqişənin həll olunmamasına müşahidəçi qalanlar, daha doğrusu, münaqişənin davam etməsi üçün səy göstərənlər daim qazananın tərəfində olublar. Davamlı sülhə gedən yolun bölgədəki bütün xalqların və dövlətlərin qarşılıqlı etimada əsaslanaraq inkişaf etdirəcəkləri əməkdaşlıqdan keçdiyinə inanırıq.

Böyük bir liderlik göstərərək bu Zəfəri və sülhü Azərbaycana qazandıran Azərbaycan Ordusunun Ali Baş Komandanı və Azərbaycan Prezidenti hörmətli qardaşım İlham Əliyevi bir daha təbrik edirəm. Liderlərinin arxası ilə Qarabağda Zəfər qazanmaq üçün tək yumruq, tək ürək olan, milli birlik və bərabərlik hisslərini ən yüksək səviyyədə nümayiş etdirən Azərbaycan xalqını təbrik edirəm. Gözlərini qırpmadan Vətən üçün, Qarabağ üçün, Qarabağın azadlığı üçün qəhrəmancasına mübarizə aparan Azərbaycan Silahlı Qüvvələrini təbrik edirəm. Şəhidlərimizin hər birinə Allahdan rəhmət diləyir, yaxınlarına başsağlığı verirəm.

Bu müqəddəs Vətən müharibəsi dövründə Türkiyə həm dövlət, həm də millət olaraq bütün qəlbi ilə Azərbaycanın yanında yer almışdır. Bu gün də bütün imkanlarımızla Azərbaycanın yanındayıq, bütün dünya bilsin ki, İnşallah, sabah da yanında olacağıq. Necə ki, Balkan müharibəsi zamanı Azərbaycanın Dövlət Himninin sözlərinin müəllifi Əhməd Cavad azərbaycanlı gənclərlə birlikdə Osmanlı ordusunun sıralarında döyüşübsə, necə ki, Çanaqqalada Azərbaycandan gələn igidlər Anadolunun dəliqanlıları birlikdə mübarizə aparıb, birlikdə şəhadətə ucalıb zəfər qazanıblarsa, necə ki, Qafqaz İslam Ordusunun aslanları - Nuru Paşanın əsgərləri o gün azərbaycanlı qardaşlarımızın yardımına gəlibsə, biz də bu gün və gələcəkdə bir və bərabər olacağıq. Azərbaycanın aydınlığı aydınlığımız, sevinci sevincimiz, azadlığı azadlığımız, taleyi taleyimiz, kədəri kədərimizdir.

Hörmətli qardaşlarım, Nuru Paşanın Qafqaza gəldiyi dövrdə ermənilər 12 mindən çox türkü, müsəlmanı qətlə yetirmişdilər. Qafqazda tarixin qara səhifələrinə yazılacaq bir qətliam yaşanmışdır. Türk millətinə hər cür iftira atanlar, əvvəlcə, buralara, Qafqaza, Azərbaycana baxmalıdırlar. Həm də təkcə yüz il əvvələ deyil, otuz il bundan əvvəl Qarabağda yaşananlara, Xocalıda yaşananlara baxmalıdırlar. Sonra vicdanları imkan verərsə, bizə yönəltdikləri ittihamları oturub onlarla ayrıca danışarıq. Amma onların gözləri var, görməz, qulaqları var, eşitməz. Ürəkləri onsuz da duyğularını itirib. Qarabağı, Azərbaycanın işğal altındakı torpaqlarını otuz il ərzində yaxıb-yıxanları, gedərkən də geridə qalan hər şeyi yandıranları görməyənlər azadlıq mübarizəsinə mane olmaq üçün səfərbər oldular. İndi gəlsinlər, Füzulini görsünlər. Bu yerlərin hər tərəfi dağıdılmış, yandırılmış, tar-mar edilmişdir. Gəlsinlər, Qarabağı görsünlər. Hər şey ortadadır. Dünən yol boyunca buraların halını gördük. Oraları nə hala salıblar. Buraları necə bombalayıb, yandırıb gediblər. Onlar gələrkən işğalçı, gedərkən isə tarmaredici idilər.

Təkcə bu davranış belə Qarabağın kimin Vətəni olduğunu göstərmək üçün kifayətdir. Azərbaycanlılar otuz il əvvəl Qarabağdan çıxmaq məcburiyyətində qalanda heç bir yeri dağıtmadılar, heç bir evi yandırmadılar. Çünki insan öz Vətənini dağıda bilməz, öz Vətənini yandıra bilməz. Amma Qarabağ onların Vətəni olmadığı üçün hər şeyi yandıraraq, dağıdaraq getdilər. Onların yandırdıqları kəndləri, dağıtdıqları şəhərləri Azərbaycan indi yenidən inşa edir və İnşallah, buraları birlikdə inşa edəcəyik və yeni bir Qarabağ meydana gətirəcəyik.

Qardaşlarım, mədəniyyət ilə vandallıq arasındakı fərqi görmək istəyən gəlsin Qarabağda iki dönəm arasındakı fərqə baxsın. Qarabağ coğrafi baxımdan dünyanın ən gözəl bölgələrindən biri olmaqla yanaşı, mədəniyyət baxımından da ən zəngin yerlərindən biri idi. İnşallah, yenə elə olacaq. Türkiyə olaraq, İnşallah, bu prosesdə də qardaş Azərbaycanın yanında yer almaqda davam edəcəyik.

Əziz qardaşlarım, dünən qardaşım İlham Əliyev və heyətlərimizlə birlikdə Şuşada idik, azad Qarabağ torpaqlarında Azərbaycan bayrağının qürurla dalğalandı-












ğını görməyin sevincini bilavasitə yaşadıq. Şuşa Qarabağ xanlığının banisi Pənahəli xan dövründən bəri adətən təbii bir İncəsənət Akademiyası kimi, musiqinin, ədəbiyyatın, incəsənətin ən yüksək səviyyədə yaşadığı və yaşadıldığı şəhər olmuşdur. Pənahəli xanın, xüsusilə şeirləri bu gün də sevilərək oxunan veziri Molla Pənah Vaqifdən başlayaraq, Şuşa ədəbiyyatın mərkəzi xarakterini qorumuşdur. Qartal yuvası kimi qayaların üstündə səmaya yaxın qurulması ilə əlaqədar Şuşada mədəniyyətin, incəsənətin, ədəbiyyatın ilhamı daim bol olub. Bu şəhər dahi bəstəkar Üzeyir Hacıbəylinin, Bülbülün, Xurşidbanu Natəvanın, Rəşid Behbudovun və daha neçə-neçə incəsənət xadimlərinin, şairlərin yurdudur. Əhməd bəy Ağaoğlu kimi təkcə Azərbaycanda deyil, Türkiyə və türk dünyasında da fikirləri ilə söz sahibi olmuş mütəfəkkirlərin yurdu Şuşa bu gün bir daha mədəniyyətlə, - heç narahat olmayın, - dirçəlir.

Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi və geridə qoyduğumuz günlərdə Cıdır düzündə keçirilən "Xarıbülbül" musiqi festivalı bu baxımdan dünyaya verilən açıq bir mesajdır. Vaqif poeziya festivalının da hazırlıqlarının davam etdiyini eşitməkdən məmnunam. Bu il Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşanı gələn il Türk dünyasının mədəniyyət paytaxtı olaraq görməkdən məmnunluq duyarıq. Türk dünyasının hər tərəfindən gələcək mədəniyyət və incəsənət əhlinin bu gözəl şəhərdə görüşməsi, Şuşanın qədim tarixinə veriləŋ ən gözəl salam olacaqdır.

Əlbəttə, təkcə Şuşa və ya Qarabağ deyil, Azərbaycanın və türk dünyasının hər yeri böyük şairlər və incəsənət xadimləri yetişdirmişdir. Məsələn, bu il Nizami Gəncəvinin anadan olmasının 880-ci ildönümüdür. Əsrlər boyu şairlər onunla yarışmağa və ona çatmağa çalışıblar. "Avni" təxəllüsü ilə şeirlər yazan Fateh Sultan Mehmet xanın bu əsərində də eyni hissiyyata rast gəlinir:

Bu kelam ile Nizami işidürse sözüni
İlteler sana hased Sa'di vü Selman bu gice.

Bu il ayrıca Ahi Evranın anadan olmasının 850-ci, Əlişir Nəvainin anadan olmasının 580-ci, Hacı Bektaşi Vəlinin vəfatının 750-ci, Yunus Əmrənin vəfatının 700-cü ildönümüdür. Keçən il Fərabinin anadan olmasının 1300-cü ili idi. Dünyada bu qədər zəngin və yüksək mədəni dəyərləri olan millətlərin sayı çox azdır. Biz bu dəyərlərimizi həm yeni nəsillərimizə, həm də bütün dünyaya izah etməliyik. Hamısını da rəhmətlə yad edərək burada saydığım və saya bilmədiyim bütün şəxslər mədəniyyətimizin sütunları olduğu kimi, dünya mədəniyyətinin də dəyərləridir.

İnsanlıq onların əsərlərindəki hikmətlərin sirrinə vaqif olduqca dünyamızdakı məsələləri həll etmək asanlaşacaqdır. Keçmişdən gələcəyə quracağımız körpü ilə mədəniyyətimizi yenidən yüksəltmək, layiq olduğu yerə çatdırmaq bizim əlimizdədir. Birliyimizi, bərabərliyimizi, dostluğumuzu, qardaşlığımızı nə qədər gücləndirsək, bir-birimizə nə qədər möhkəm sarılsaq, bu hədəfə o qədər tez nail olarıq.

Qardaşlarım, Qarabağ Zəfərinin Azərbaycana, Qafqaza və dünyaya gətirəcəyi faydaların dəyəri zaman keçdikcə daha yaxşı dərk ediləcək. Bu Zəfərdən heç kim narahat olmasın. Çünki bu, fəlakətin deyil, inşanın, zülmün deyil, ədalətin, kobudluğun deyil, zərifliyin, müharibənin deyil, sülhün, qanın deyil, qəlbin Zəfəridir. Həqiqətən bu Qələbədən sonra görülən və görüləcək işlərə baxdıqda yaratdığımız mənzərənin necə canlanacağı görünəcək. Hər şeydən əvvəl Qarabağın hər yerinə sabitlik, əmin-amanlıq və ümid hakim olub. Evlərindən, yurdlarından otuz ildir ayrı düşən azərbaycanlı qardaşlarımıza evlərinə qayıtmaq yolu açılmışdır. İnşallah, sonrakı gəlişimizdə bu torpaqların insanlarının evlərinə yerləşdiyini görməyin sevincini yaşayacağıq. Onlara indidən bu müraciəti Azərbaycan parlamentindən mən də edirəm. Bir an əvvəl, İnşallah, evləriniz inşa edilir, ediləcək və oralara yerləşməyinizi biz də həsrətlə gözləyirik.

İşğalın səbəb olduğu davamlı münaqişə vəziyyətindən qaynaqlanan yorucu gərginlik ortadan qalxıb. İndi yollar sürətlə inşa edilir, su kəmərləri çəkilir, elektrik stansiyaları bir tərəfdən qurulur, bir tərəfdən açılır. Bunları gözlərimlə gördüm, ona görə söyləyirəm. Bir tərəfdən infrastruktur obyektləri tikilir. Biz də, inşallah, TOKİ-mizlə bölgədə məktəb, xəstəxana və buna bənzər bir çox əsərləri inşa etməyə çalışacağıq.

Naxçıvan ilə Bakını bir-biri ilə birləşdirəcək Zəngəzur dəhlizinin bölgəmizə gətirəcəyi rahatlığın və zənginliyin tərifi mümkün deyil. Bölgəmizdə və bütün dünyada zalımın zülmünün əbədi olmadığı, bir gün mütləq haqqın, ədalətin bərqərar olacağı hər kəsə məlumdur. Qarabağ, eyni zamanda, dünyanı öz siyasi və iqtisadi maraqlarının arenası olaraq görənlərin hesablarının pozulduğu yerdir. Üstəlik, bütün bu proseslər Azərbaycan ilə birlikdə Ermənistan üçün də yeni bir dövrün başlanğıcıdır. Məsələn, Zəngəzur dəhlizində fəaliyyətə başlayacaq dəmir yolu ilə ermənilər də rahatlıqla Moskvaya və bütün dünyaya çıxa biləcəklər və beləliklə özləri də özlərini saldıqları blokadadan xilas ola biləcəklər.

Qardaşımla birlikdə təklifimizi etdik. Nə idi təklifimiz? Gəlin, altı ölkə bir platforma formalaşdıraq: Rusiya, Türkiyə, Azərbaycan, İran, Ermənistan və Gürcüstan. Bu platforma ilə birlikdə artıq bölgədə bir sabitlik meydana gəlsin, bölgədə düşmənçiliklər ortadan qalxsın. Burada demək olar ki, təkcə Gürcüstanın bəzi özünəməxsus sualları var idi. Son Türkiyə səfərində cənab Baş nazirlə də bu məsələləri bir daha müzakirə etdim. Dedim, bu, Gürcüstanın da lehinə olacaq, bu addımı ataq. Bax, biz Ermənistan ilə aramızdakı narahatlıqları bilirik. Amma biz bütün bunlara baxmayaraq, azərbaycanlı qardaşlarımızın narahatlıqlarının da aradan qaldırılmasını istəyirik. Eyni qaydada sizin də Rusiya ilə problemlərinizin həllinə bu platforma töhfə verəcək. "Çalışaram" dedi. "Yaxşı olar" dedik.

Çünki bu bölgənin sülhə ehtiyacı var. Buna nail olmalıyıq. Ermənistan Azərbaycan ilə problemlərini həll etdikcə Türkiyə olaraq biz də lazımi addımları atacağıq. Türkiyə sərhədlərinin açılmasının Ermənistana verəcəyi faydalar saymaqla bitməz. Bu Zəfəri hər kəsin ortaq zəfərinə çevirmək bizim əlimizdədir. Bir daha Qafqazın boynuna kimsənin əsarət zənciri vura bilməməsi üçün qarşımıza çıxan fürsətləri hamımız birlikdə ən yaxşı şəkildə dəyərləndirməliyik. Biz bu mübarizəni özümüz və dostlarımızla birlikdə "Dünya beşdən böyükdür" deyərək qlobal səviyyədə də aparırıq.

Mən buraya NATO-nun Zirvə toplantısından gəldim. NATO-nun Zirvə toplantısında da məhz bu məsələləri müzakirə etdik, bunları dəyərləndirdik. Çox şükür, səmərəli görüşlərlə buraya gəldik. Amma dünyanın problemləri bitmir, dünyada həll ediləcək hələ çox problemlər var. Amma dik dursaq, möhkəm dursaq, bir olsaq, bərabər olsaq, Allahın izni ilə bunları həll edərik. İnşallah, mədəniyyət günəşimizi yenidən ən yüksək zirvəyə qaldıraraq, sülhü və ədaləti bölgəmizdə və dünyada hakim edəcəyimiz günlər yaxındır. Çıxışımı böyük şair Bəxtiyar Vahabzadənin bu misraları ilə bitirmək istəyirəm:

Bir ananın iki oğlu,
Bir ağacın iki qolu,
O da ulu, bu da ulu,
Azərbaycan, Türkiyə.
Dinimiz bir, dilimiz bir,
Ayımız bir, ilimiz bir,
Eşqimiz bir, yolumuz bir,
Azərbaycan, Türkiyə.

Hamınızı sevgi ilə, məhəbbətlə salamlayıram. Salamat qalın.

***Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması ilə əlaqədar bəyanat yayıblar. SIA-nın məlumatına görə, bəyanatda deyilir:***

# "Şuşa Bəyannaməsi mühüm tarixi və strateji əhəmiyyət kəsb edir"

## *Siyasi partiyaların Şuşa Bəyannaməsinin imzalanması ilə əlaqədar bəyanatı*




"2021-ci il iyunun 15-də - tarixi Qars müqaviləsindən yüz il sonra iki dost və qardaş ölkə arasında imzalanan müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsi böyük tarixi və strateji əhəmiyyətə malikdir. Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin söylədikləri "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və "Bir millət, iki dövlət" ifadələrinin xalqlarımızın milli-mənəvi sərvəti kimi dəyərləndirildiyi bu Bəyannamə iki qardaş ölkə arasındakı bütün strateji əlaqələri ən yüksək səviyyəyə qaldırır. Azərbaycan-Türkiyə münasibətlərinin bu şəkildə inkişafı dostlarımızı sevindirir, ölkəmizin güclənməsini, rifahını və təhlükəsizliyini istəməyənləri isə məyus edir.

Biz - Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutan, milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirən hər iki ölkə tərəfindən müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyənləşdirən Şuşa Bəyannaməsinin mühüm tarixi və strateji əhəmiyyət kəsb etdiyini bildiririk.

Bəyannamədə milli mənafelər baxımından siyasi, hərbi və təhlükəsizlik sahələrində əlaqələndirilmiş və birgə fəaliyyətlərin təşviq edilməsi xüsusi yer tutur. Tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, birgə məsləhətləşmələr aparılması, beynəlxalq hüquq kontekstində bu təhdid və ya təcavüzün aradan qaldırılması istiqamətində birgə fəaliyyət göstərilməsini dəstəkləyirik.

Şuşa Bəyannaməsində Silahlı Qüvvələrimizin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səylərin göstərilməsi, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılması, hər iki ölkənin Təhlükəsizlik şuralarının milli təhlükəsizlik məsələləri üzrə müntəzəm olaraq birgə iclaslarının keçirilməsini yüksək dəyərləndiririk.

Milli iqtisadiyyatların və ixracın şaxələndirilməsi üzrə səylərin artırılması, iqtisadi əlaqələrə böyük töhfə verəcək, Azərbaycan ilə Türkiyəni birləşdirəcək Zəngəzur dəhlizinin açılması, regionda nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası, beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafının təşviqi kimi aktual məsələləri, həmçinin Azərbaycan və türk diasporları arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi, milli mənafelərin qorunmasına dair tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında diaspor fəaliyyətinin əlaqələndirilməsi təşəbbüslərini alqışlayırıq.

Azərbaycan-Türkiyə münasibətləri hazırda özünün ən uca zirvəsinə yüksəlib. Xalqlarımızın eyni soykökə, dilə, dinə, mədəniyyətə və bir çox digər ortaq dəyərlərə, sıx bağlara malik olması ölkələrimizi həmişə bir-birinə yaxın edib, xalqlarımız sevincli, kədərli günlərdə daim bir-birinin yanında olub. Ermənistanın 30 illik təcavüzünə son qoyulmasında, işğal altındakı torpaqların düşməndən azad olunmasında, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində Türkiyənin mənəvi-siyasi dəstəyi xalqımızın hər bir nümayəndəsi və siyasi partiya üzvləri tərəfindən yüksək qiymətləndirilir. Hazırda Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region ölkələri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində ölkələrimizin birgə təşəbbüsləri dünya dövlətləri üçün ən gözəl nümunədir.

Biz - Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar Azərbaycanın və bütövlükdə Türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa şəhərində Azərbaycan və Türkiyə arasında imzalanmış Şuşa Bəyannaməsini ölkələrimizin keyfiyyət baxımından yeni əlaqələrinin inkişafı və hər iki ölkənin gələcək birgə fəaliyyətinin vacib əsası hesab edir və bu yüksək strateji müttəfiqlikdə dövlətimizin yanında olduğumuzu bəyan edirik.

Yaşasın Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı!

1. Yeni Azərbaycan Partiyasının sədr müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov
2. Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı
3. "Ana Vətən" Partiyasının sədri Fəzail Ağamalı
4. Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Qüdrət Həsənquliyev
5. Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa
6. Vəhdət Partiyasının sədri Tahir Kərimli
7. Azərbaycan Demokratik Maarifçilik Partiyasının sədri Elşən Musayev
8. Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə
9. Vətəndaş Birliyi Partiyasının sədri Sabir Hacıyev
10. Milli Cəbhə Partiyasının sədri Razi Nurullayev
11. REAL Partiyasının sədri İlqar Məmmədov
12. Azərbaycan Ümid Partiyasının sədri İqbal Ağa-zadə
13. Klassik Xalq Cəbhəsi Partiyasının sədri Mirmahmud Fəttayev
14. Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn
15. Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu
16. Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev
17. Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev
18. Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə
19. Ağ Partiyasının sədri Tural Abbaslı
20. "Ədalət" Partiyasının sədri İlyas İsmayılov
21. Vahid Azərbaycan Milli Birlik Partiyasının sədri Hacıbaba Əzimov
22. Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev
23. Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev
24. Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər
25. Azərbaycan Liberal Demokrat Partiyasının sədri Fuad Əliyev
26. "Milli Vəhdət" Partiyasının sədri Yunus Oğuz
27. Aydınlar Partiyasının sədri Qulamhüseyn Əlibəyli
28. Azərbaycan Naminə Alyans Partiyasının sədri Abutalıb Səmədov
29. Azərbaycan Sosial Demokrat Partiyasının sədri Araz Əlizadə
30. Yeni Zaman Partiyasının sədri Musa Ağayev
31. Azərbaycan Sosial Rifah Partiyasının sədri Əsli Kazımova
32. Cümhuriyyət Xalq Partiyasının sədri Bədrəddin Quliyev
33. Müstəqil Xalq Partiyasının sədri Əflan İbrahimov
34. "Birlik" Partiyasının sədri Xudadat Xudiyev
35. Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov
36. Azərbaycan Respublikaçılar Partiyasının sədri Sübut Əsədov
37. Azərbaycan Azad Respublikaçılar Partiyasının sədri Kamil Seyidov
38. Azadlıq Partiyasının sədri Əhməd Orucov
39. Azərbaycan Təkamül Partiyasının sədri Teyyub Qənioğlu
40. Azərbaycan Milli Demokrat Partiyasının sədri Tufan Kərimov
41. Azərbaycan Liberal Partiyasının sədri Əvəz Temirxan
42. "Qorqud" Partiyasının sədri Firudin Kərimov
43. Milli Demokrat İdrak Partiyasının sədri Osman Əfəndi
44. Milli Konqres Partiyasının sədri İxtiyar Şirinov
45. Gələcək Azərbaycan Partiyasının sədri Ağasif Şakiroğlu
46. Sosial Ədalət Partiyasının sədri Mətləb Mütəllimov
47. Azərbaycan Kommunist Partiyası - Hacı Hacıyev, Rauf Qurbanov
48. "Azərbaycan Mübarizləri" Partiyasının sədr müavini Səadət Müslümova".

# “Kommersant”: Türkiyə və Azərbaycan Cənubi Qafqazda yeni alyans yaratdı

***Türkiyə və Azərbaycan Cənubi Qafqazda yeni alyans yaratdı. AZƏRTAC xəbər verir ki, “Kommersant” qəzetində Serqey Strokanın məqaləsi dərc olunub. Materialda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Qarabağın rəmzi olan Şuşa şəhərinə səfərindən bəhs edilir.***



Объявлен состав сборной России на матч с Финляндией
Собянин разрешил москвичам сидеть на скамейках в парках
РФПИ сообщил о положительном отзыве ЕМА на «Спутник V»
Козак не видит смысла в проведении нового саммита «нормандской четверки»
15:43 Россия и Китай планируют построить лунную станцию в к 2035 году
15:40 Турция намерена отстроить «новый Карабах» вместе с Азербайджаном
15:35 Новак анонсировал увеличение биржевых продаж дизтоплива и бензина
15:28 Во Франции отменили обязательное ношение масок на улице
15:28 Колледж в Екатеринбурге проверят после занижения оценки студенту за зеленый цвет волос
15:18 ЕС не намерен ограничивать

От всей Шуши

Турция и Азербайджан создали новый альянс на Южном Кавказе

9

Газета "Коммерсантъ" №101 от 16.06.2021, стр. 6

Müəllif yazır: “Bu şəhərdə Türkiyə Prezidenti və onun azərbaycanlı həmkarı İlham Əliyev müttəfiqlik münasibətləri haqqında “tarixi bəyannamə” imzaladılar. Türkiyə lideri Ermənistan ilə münasibətləri normallaşdırmağa çağırdı və Cənubi Qafqazda Türkiyə, Rusiya, Azərbaycan, Ermənistan, Gürcüstan və İranın iştirakı ilə altıtərəfli əməkdaşlıq formatı təklif etdi”.

Məqalədə qeyd edilir ki, Prezident İlham Əliyev Azərbaycan ilə Türkiyənin müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsini “tarixi əhəmiyyətli saziş” adlandırıb. Bu sənədin imzalanmasından əvvəl Rəcəb Tayyib Ərdoğan ABŞ Prezidenti Co Bayden ilə ilk dəfə görüşüb.

Müəllif yazır: “Ankaraya Rusiyada istehsal edilən C-400 zenit-raket sistemlərinin satışı məsələsi barədə ABŞ-ın təzyiqinə uymayan Prezident Ərdoğan faktiki olaraq Ağ evin yeni rəhbərini Vaşinqton üçün xoşagəlməz reallıqla barışmağa və Türkiyəyə təzyiqi davam etdirməkdən çəkinməyə məcbur etdi. Co Bayden açıq-aşkar sülhpərvər mövqe tutaraq deyib: “Görüşümüz müsbət və səmərəli oldu. Əminəm ki, Türkiyə ilə Birləşmiş Ştatlar arasında həqiqi tərəqqiyə nail olacağıq”. Rəcəb Tayyib Ərdoğan isə öz növbəsində qeyd edib ki, ABŞ ilə Türkiyə arasında “həlledilməz problemlər yoxdur”. Ərdoğan NATO tərəfə barışdırıcı jest edərək, bu alyansı Aralıq Dənizindən Qara Dənizə, Avropadan Asiyaya qədər onun “təhlükəsizlik çətiri”nə ehtiyac duyulan bütün regionlarda fəal rol oynamağa çağırıb”.

S.Strokanın fikrincə, Prezident Rəcəb Tayyib Ərdoğanın Bakıya səfəri Türkiyə-Azərbaycan münasibətlərinə də yeni təkan verib.

Müəllif Azərbaycan Prezidenti İlham Əliyevin sözlərini sitat gətirir. Şuşa Bəyannaməsinin Azərbaycan - Türkiyə münasibətlərini ən yüksək səviyyəyə çatdırdığını qeyd edən Prezident Əliyev deyib: “Biz bu gün keyfiyyətcə yeni əlaqələr qurmuşuq və bu Bəyannamədə göstərilən bütün müddəalar bizim gələcək iş birliyimizin təminatçısıdır”.

Məqalədə Prezident Rəcəb Tayyib Ərdoğanın sözləri də sitat gətirilir. Ərdoğan regiondakı altı əsas dövləti cəlb etməklə Qarabağın bərpası işini fəallaşdırmağa çağırıb. Türkiyə Prezidenti deyib: “Altılı platformada Rusiya, Türkiyə, Azərbaycan, Ermənistan, Gürcüstan və İran var. Bu altılı platforma ilə birlikdə artıq istəyirik ki, bölgə rahatlıqla, sülh içində yaşanan bir bölgə olsun. Bu addımı atmaq üçün biz birlikdə hər cür fədakarlığa hazırıq. Cənab Putin eyni qaydada bu cür fədakarlığa hazırdır”.

S.Strokanın sözlərinə görə Ermənistanda növbədənkənar parlament seçkilərinə saylı günlər qalmış və Cenevrədə Rusiya-Amerika sammiti ərəfəsində Türkiyə liderinin Azərbaycana səfəri İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda yaranan yeni reallığı əks etdirməlidir.

Məqalədə deyilir: “İki liderin danışıqları Qarabağın ikinci ən böyük şəhərində - bu il 1 may ayında Prezident Əliyevin “Azərbaycanın mədəni paytaxtı” elan etdiyi “azad edilmiş Şuşada” keçirmək qərarı Türkiyə Prezidentinin səfərinin regiondakı bütün aktorlara siyasi jestə və siqnal olmasını təsdiq etdi. Hazırda seçkiqabağı kampaniya ilə əlaqədar Ermənistanın baş naziri səlahiyyətlərini icra edən Nikol Paşinyanın əvvəllər nümayişkarənə səfərlər etdiyi Şuşanın itirilməsi həm Ermənistan cəmiyyəti üçün, həm də bu günlərdə hakimiyyət uğrunda həlledici döyüş aparan siyasətçilər üçün qeyri-adi dərəcədə ağrılı mövzu olaraq qalır”.

Müəllif yazır ki, iyunun əvvəlində Gürcüstanın baş naziri İrakli Qaribaşvilinin Ankaraya dövlət səfəri bu fonda Türkiyənin regionda liderlik iddiasında olmasını bir daha təsdiq etdi. S.Strokan xatırladır ki, Türkiyə lideri Gürcüstanın baş naziri ilə görüşdə Azərbaycan ilə üçtərəfli əməkdaşlığın vacib olduğunu göstərib. Rəcəb Tayyib Ərdoğan deyib: “Türkiyə hər hansı üçtərəfli əməkdaşlığı dəstəkləyir, istər Gürcüstan-Azərbaycan-Ermənistan, istərsə də Gürcüstan-Azərbaycan-Türkiyə olsun”.

## Hikmət Hacıyev: “Azərbaycan beynəlxalq təhlükəsizliyin təmin olunmasında NATO-nun rolunu alqışlayır”

***Azərbaycan NATO ilə münasibətlərin inkişafı üzrə fəal təşəbbüslərlə çıxış edib. Azərbaycanla NATO arasında siyasi dialoq ən səmərəli mexanizmlərdəndir. Ölkəmiz təşkilatla əməkdaşlıq və dialoqun daha da genişlənməsini istəyir.***

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyası xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev “Azərbaycanın Avratlantik məkanın sülh və təhlükəsizliyə töhfəsi” mövzusunda beynəlxalq konfransında deyib.

Prezidentin köməkçisi bildirib ki, Azərbaycan NATO-nun regional sabitliyi, təhlükəsizliyi diqqətlə izləməsini və birbaşa müdaxilə etməməsini yüksək qiymətləndirir. Azərbaycan postmünaqişə dövründə regional əməkdaşlıqda maraqlıdır və Zəngəzur dəhlizi region-da əməkdaşlığın uğurlu nümunəsinə çevrilə bilər.



Azərbaycanın beynəlxalq təhlükəsizliyin təmin olunmasında NATO-nun rolunu alqışladığını vurğulayan Hikmət Hacıyev bildirib ki, ölkəmiz təşkilatla mövcud sazişlərin tərəfdaşlıq prinsiplərinə sadiqdir.

Prezidentin köməkçisi deyib ki, Azərbaycan beynəlxalq münasibətlərin inkişafına böyük əhəmiyyət verir. “Azərbaycan Qoşulmama Hərəkatından beynəlxalq sülh və təhlükəsizliyə töhfə vermək üçün istifadə edir. Biz xüsusilə COVID-19-dan sonra yaranmış reallıqlar nəzərə alınmaqla, beynəlxalq münasibətlərdə sabitliyin təmin olunması üçün dəyərlərə, əməkdaşlığa diqqət veririk”, - deyə Hikmət Hacıyev əlavə edib.

## Erməni ekspert: Ərdoğanın Şuşa səfəri göstərdi ki, Türkiyə öz vədini gerçəkləşdirəcək gücdədir

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Şuşada səsləndirdiyi bəyanatlar Ermənistanın siyasi kuluarlarında əsas müzakirə obyekti olaraq qalır.

İyun ayının 15-də baş tutan bu səfər dünyanın aparıcı KİV-lərinin diqqət mərkəzində idi və təkcə regionda deyil, dünyanın siyasi mərkəzlərində maraqla izlənilirdi. Bu diqqət və maraq daha çox Türkiyə liderinin bir gün əvvəl Brüsseldə NATO sammiti çərçivəsində ABŞ Prezidenti Co Baydenlə keçirdiyi görüşlə izah olunsa da, 2020-ci ilin noyabrından sonra Cənubi Qafqazda yaranan yeni geopolitik situasiyada yeni konturların cızılacağı ilə daha çox aktual görünürdü.

AZƏRTAC xəbər verir ki, Ermənistan EA Şərqşünaslıq İnstitutu elmi rəhbərinin əvəzi, akademik Ruben Safratsyan “Sputnik Armeniya”nın efirində bu konturlardan danışıb: “Əliyev və Ərdoğan təkcə Ermənistana, Qarabağa deyil, bütün ermənilərə və regiona Türkiyənin Cənubi Qafqazda yeni statusda möhkəmlənməsinin, Azərbaycanla Türkiyə ittifaqının nə qədər dərin olduğunun təqdimatını etdilər”.

Akademik Safratsyan hesab edir ki, Türkiyə Prezidentinin Şuşa səfəri daha çox rəmzi mahiyyət daşısa da,



konkret mesajları ilə yadda qalacaq: “Bu səfəri ilə o, türk dünyasına göstərdi ki, Türkiyə öz vədini gerçəkləşdirəcək gücdədir. Bu, xüsusilə, Əliyevin Şuşanı Azərbaycanın mədəniyyət paytaxtı elan etməsi fonunda güc nümayişi kimi daha çox yadda qaldı. Türkiyə Qərbin tapşırıqlarını yerinə yetirməklə, regionda onun nümayəndəsi rolunda çıxış edir. Baydenlə görüşdən sonra Ərdoğanın səsləndirdiyi bəyanat da göstərir ki, Türkiyənin NATO və ABŞ üçün strateji əhəmiyyəti indiyəcən heç vaxt bu səviyyədə olmayıb”.

Safratsyanın fikrincə, Ərdoğan Türkiyənin “Qarabağ müharibəsinə qoşulması” Qərbin maraqlarına uyğundur. Ermənistan rəhbərliyinin reallaşacağını inkar etdiyi “Zəngəzur dəhlizi”, əslində gerçəklikdir və “Türkiyə ilə Azərbaycanın bu layihənin reallaşması üzərində intensiv çalışması onu təsdiqləyir ki, Naxçıvanla Bakı arasında nəqliyyat dəhlizinin yaradılması uzaqda deyil”.

## Böyük Britaniyada yaşayan azərbaycanlılar BBC-nin qarşısında mitinq keçiriblər

Böyük Britaniyada yaşayan azərbaycanlılar Londonda yerləşən BBC (The British Broadcoasting Cooperation) telekanalının qarşısında mitinq keçiriblər. Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə “Natavan Qrup”u və Britaniya Azərbaycanlıları Assosiasiyası tərəfindən təşkil olunub. Aksiyanın məqsədi Kəlbəcər rayonunda xidməti vəzifələrini yerinə yetirən azərbaycanlı jurnalistlər Məhərrəm İbrahimovun və Sirac Abışovun mina partlayışı nəticəsində həlak olmasına diqqəti cəlb etmək olub. Azərbaycanın dövlət bayraqları ilə aksiyaya qatılan soydaşlarımız jurnalistlərin fotolarını və Ermənistanın mina cinayətlərini əks etdirən posterləri nümayiş etdiriblər. Posterlərdə “Mina xəritələrini verin”, “Azərbaycanlı jurnalistlərə qarşı Ermənistanın müharibə cinayətləri”, “Ermənistan qanunlara əməl etmir”, “Ermənistan azərbaycanlı jurnalistlərin qatilidir”, “Bizi minalardan xilas edin” şüarları əks olunub. Aksiya iştirakçıları beynəlxalq təşkilatlara bəyanat ünvanlayaraq, dünya ictimaiyyətini, beynəlxalq medianı Ermənistanın təxribatçı hərəkətlərinə və azərbaycanlı jurnalistlərin xidməti vəzifələrini yerinə yetirərkən həlak olmalarına biganə qalmamağa, Azərbaycanın haqlı və ədalətli mövqeyini müdafiə etməyə çağırıb. Soydaşlarımız bəyanatı BBC-nin rəhbərliyinə də təqdim ediblər. Aksiya zamanı yerli sakinlərə Ermənistanın xalqımıza qarşı törətdiyi hərbi cinayətlər və təxribatlar barədə geniş məlumat verilib.



# Vüqar Rəhimzadə: "Şuşa yazdığı tarixlə bütün dünyaya mesajlarını ünvanladı"

*Bütün türk dünyasının birliyinə, regionda sabitliyin, təhlükəsizliyin təminatına, Türkiyə-Azərbaycan dostluğunun yeni strateji istiqamətlər üzrə inkişafına xidmət edəcək Şuşa Bəyannaməsi dünyanın diqqətindədir. Qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri çərçivəsində Şuşada rəsmi qarşılanması ölkəmizin, mədəniyyət paytaxtımız Şuşanın həyatında tarixi hadisədir. Bu reallıqlar dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin "Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatının reallıqda bir daha təsdiqidir.*



"Türkiyə Prezidentinin Şuşaya gəlişinin ilk anından müşahidə etdiyimiz bayram ab-havası, qürur dolu anlar bu birliyin sarsılmazlığının təqdimatı oldu. 44 günlük İkinci Qarabağ müharibəsinin başlandığı andan "Azərbaycan tək deyil" bəyanatını dünyaya ünvanlayaraq hər zaman ölkəmizin yanında olduğunu təsdiqləyən Rəcəb Tayyib Ərdoğanın, qardaş ölkənin digər rəsmilərinin, sıravi vətəndaşlarının dəstəyi dövlətimiz, xalqımız tərəfindən yüksək dəyərləndirilir. Azərbaycan və Türkiyə eyni sevinci yaşadı, küçə və meydanlarımızı hər iki ölkənin bayraqları bəzədi. Necə ki, birliyimizin rəmzi kimi dəyərləndirilən, birgə dalğalanan bayraqlarımız Şuşada bu sevinci hər kəsə bəxş etdi. Mətbuata bəyanatında "Bu gün qardaş ölkənin Cümhurbaşqanı tarixi şəhərdə bizim qonağımızdır və hiss etdiyimiz duyğuları sözlərlə ifadə etmək mümkün deyil. Mən əminəm ki, buraya gələn hər bir insan eyni duyğuları hiss edir və bu çox duyğusal günləri yaşadığımız üçün Ulu Tanrıya minnətdarıq" söyləyən möhtərəm Prezidentimiz İlham Əliyev Türkiyə-Azərbaycan dostluğunun, birliyinin əbədiliyini təsdiqləyən bu fikirləri də xüsusi qeyd etdi ki, əziz qardaşım, Sizi səbirsizliklə Şuşada gözləyirdik. Doğma Vətəninizə xoş gəlmisiniz, Şuşamıza xoş gəlmisiniz!". Bu fikirləri "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SIA-ya açıqlamasında bildirib.

Şuşa Bəyannaməsinin adında bütün məqamları ehtiva etdiyini bildirən Vüqar Rəhimzadə qeyd edib ki, belə bir sənədə məhz Şuşada imza atılması İkinci Qarabağ müharibəsindən sonra yaranan yeni reallıqlar fonunda dünyaya bir çox mesajları çatdırır: "Sənədin imzalanmasında məkan təbii ki, əhəmiyyətli rol oynayır. Bu, böyük tarixdir. Hər bir sənəd özündə ehtiva etdiyi məqamlarla, hədəflərlə əhəmiyyətlidir. Beynəlxalq sənəddə vaxt və imza ilə yanaşı, yerin nə qədər böyük məna kəsb etdiyi aydındır. Bu baxımdan Azərbaycan və Türkiyənin müttəfiqlik münasibətlərinə işıq salan və perspektivləri müəyyənləşdirilən sənədə Şuşada imza atılması qürurvericidir, rəmzi məna və mühüm tarixi əhəmiyyət kəsb edir. 15 iyun 2021-ci il, Şuşa şəhəri imzası özündə bütün məqamları birləşdirir. Bu, Qarabağımızın təqdimatı, torpaqlarımızın tarixi sahibinə qayıtması, ərazi bütövlüyümüzün bərpası, Dağlıq Qarabağ ifadəsinin tarixə qovuşması, ən əsası yeni səhifənin açılaraq mədəniyyət paytaxtımızın imzalar arasında imzasının görünməsi və təsdiqidir. Qarabağın tacı olan Şuşamızın həyatında yeni mərhələnin başlanğıcı, dirçəlişinin mühüm səhifəsidir."

"Böyük qürur hissi ilə deyə bilərik ki, Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri isə bizim kədərimizdir", Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" fikirlərinin ardınca dövlətimizin başçısı İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Şuşadan dünyaya bu mesajları çatdırdılar: "Bundan sonra da hər zaman bir yerdə olacağıq. Bundan sonra da bir-birimizin təhlükəsizliyini təmin edəcəyik, necə ki, bu günə qədər Türkiyə və Azərbaycan bütün məsələlərdə bir yerdədir, bundan sonra da bu, belə olacaq", "Bizim gücümüz Azərbaycanın gücü, Azərbaycanın gücü də bizim gücümüzdür".

Azərbaycanın da daim dost ölkənin yanında olduğunu xüsusi qeyd edən baş redaktor bildirib ki, bu birliyi daimi edən, günbəgün möhkəmlənməsini şərtləndirən amillər tarix, mədəniyyət, ortaq köklər, dilimiz, dinimiz, milli dəyərlərimiz, milli maraqlarımız, xalqlarımızın qardaşlığıdır. Böyük fəxr hissi ilə qeyd edirik ki, bu gün Türkiyə və Azərbaycan dünya miqyasında nadir əməkdaşlıq, iş birliyi, müttəfiqlik nümunəsi göstərir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Belçika səfərindən sonra Azərbaycana rəsmi səfəri, Şuşada qarşılanması, ikitərəfli əlaqələrin inkişafına xidmət edən tarixi sənədin imzalanması özündə bir çox məqamları ehtiva edir" söyləyən V.Rəhimzadə bu səfərin, həmçinin Şuşa Bəyannaməsinin təcavüzkar Ermənistana və onun havadarlarına güclü mesaj olduğunu qeyd edib: "Regionda yaranan yeni reallıqlarla barışmaq istəməyən, Ermənistan vasitəsi ilə bölgədə çirkin niyyətlərini həyata keçirmək istəyən dairələr bu birliyin sarsılmazlığı ilə yanaşı, gələcəyə hesablanmış hədəfləri müddəalarında birləşdirən Şuşa Bəyannaməsinin məqsəd və məramlarını dərk etməlidirlər. Daim regionda sülhün, təhlükəsizliyin təminatçısı kimi tanınan və nüfuz qazanan Türkiyə-Azərbaycan birliyinin daha da güclənməsi, dövlətlər, xalqlar arasında körpünün daha da möhkəmlənməsinə töhfələrinin artırılması üçün yeni imkanlar yaranır."

V.Rəhimzadə bildirib ki, Şuşa tarixi gün yaşamaqla yanaşı, yazdığı tarixlə mesajlarını ünvanladı: "Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Musiqi irsi və Qarabağ atları Cıdır düzündə" adlı kompozisiyanın təqdim olunması, tədbir zamanı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana "Zəfər" adlı Qarabağ atının və "Xarıbülbül" kompozisiyasının hədiyyə edilməsi, "Xarıbülbül" kompozisiyasında Qarabağın rəmzi sayılan iki xarıbülbül gülü birləşərək Azərbaycan ilə Türkiyə arasındakı əbədi dostluq və qardaşlıq münasibətlərini təcəssüm etdirməsi, tədbirin qonaqlarına, həmçinin Heydər Əliyev Fondunun "Qarabağın mədəni irsi" adlı nəşrlər toplusunun hədiyyə olunması və sair dünyanın diqqətini çəkəcək məqamlar saysızhesabsız oldu. Bu baxımdan ki, hər bir addım özündə iki dost ölkənin birliyini ifadə edir və dünyaya bu mesajı çatdırır ki, bu birlik bütün istiqamətlərdə nümunədir. Azərbaycan və Türkiyə Prezidentlərinin görüşünün həm Füzulidə, həm də Şuşada baş tutması Türkiyənin bölgədə rolunun, Azərbaycana verdiyi dəstəyin önəmli təzahürlərindən biridir. Səfərin ABŞ Prezidenti Co Baydenlə Rəcəb Tayyib Ərdoğan arasında dialoqdan dərhal sonraya təsadüf etməsi Türkiyə və Azərbaycanın qısa zamanda Qarabağda və Cənubi Qafqazda postmüharibə dövründə müəyyən proseslərlə bağlı ortaq yol xəritəsi hazırlayacaqlarından xəbər verirdi ki, Şuşa Bəyannaməsi bunun təsdiqi oldu."

Baş redaktor qeyd edib ki, Azərbaycan üçün çox önəmli bir tarixdə - Milli Qurtuluş Günündə, Qars müqaviləsindən yüz il sonra iki dost və qardaş ölkə arasında imzalanan müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsi tarixə mühüm hadisə kimi yazıldı: "Bu tarixi sənəd iki qardaş ölkənin ümumi maraqlarının qorunmasında imkanların birləşdirilməsinin, eləcə də ortaq maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsinin məntiqi nəticəsi olaraq ölkələrimizin regional və beynəlxalq rolunu, çəkisini daha da artıracaq. Sənəddə birgə milli mənafelər baxımından siyasi, hərbi və təhlükəsizlik sahələrində əlaqələndirilmiş və birgə fəaliyyətlərin təşviq edilməsi də xüsusi yer tutur. Tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, birgə məsləhətləşmələr aparılması, bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirilməsi, BMT Nizamnaməsinə uyğun olaraq bir-birinə lazımi yardım göstərməsi, Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyətinin təşkili nəzərdə tutulur."

Azərbaycan və Türkiyənin daim ermənilərin əsassız iddiaları, təbliğatları ilə üz-üzə qaldığını önə çəkən Vüqar Rəhimzadə Bəyannamədə yer alan bu məqamı da xüsusi qeyd edib: "Ermənistanın Türkiyəyə qarşı əsassız iddialarının, tarixin saxtalaşdırılması və tarixi faktların təhrif olunmaqla siyasiləşdirilməsi cəhdlərinin regionda sülhü və sabitliyi təhdid etməsi nəzərə alınmaqla, 1915-ci il hadisələri ilə bağlı arxivlərin açılması və bu mövzuda tarixçilər tərəfindən araşdırmaların aparılmasına yönəlmiş səylərin qətiyyətlə dəstəklənməsi vacibdir. Azərbaycan-Türkiyə Media Platformasının imkanları çərçivəsində iki ölkənin aidiyyəti qurumları arasında informasiya, kommunikasiya və ictimai diplomatiya sahəsində əməkdaşlıq gücləndirilməli, türk həmrəyliyinin daha da möhkəmləndirilməsi məqsədilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və əlaqədar qurumlar çərçivəsində həyata keçirilən fəaliyyətlərə təkan verilməlidir. Ümumiləşdirilmiş şəkildə qeyd etsək, Azərbaycan-Türkiyə münasibətləri hazırda özünün ən uca zirvəsinə yüksəlib. Azərbaycan və Türkiyə arasında əlaqələrin yüksək səviyyəsi ümumilikdə regionun tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir."

# Rusiyadan proqnoz: Moskva Şuşa bəyannaməsində hansı rolu alacaq?



## Aleksandr Perenciyev: "Türkiyə-Azərbaycan ittifaqı Şuşa bəyannaməsinin nüvəsidir"

"Mən dünyada baş verən siyasi prosesləri məntiqi nəticə ilə qiymətləndirirəm. İlk əvvəl Avropada, Asiyada, Yaxın Şərqdə və xüsusilə Cənubi Qafqaz makroregionu da daxil olmaqla postsovet məkanında, eləcə də ABŞ-ın, Avropa İttifaqının, NATO-nun, Türkiyənin, Rusiyanın və s. həyata keçirdiyi siyasətlərinin təbii nəticələri də buraya aiddir". SIA xəbər verir ki, bu sözləri @Caucasian_bureau (Kavkazskiy byuro) teleqram kanalına Rusiyanın hərbi eksperti Aleksandr Perenciyev Şuşa bəyannaməsi ilə bağlı fikirlərini açıqlayarkən deyib.

## "Dağ Ərdoğana tərəf getmirsə, onda Ərdoğan özü həmin dağı yaradır"

Perenciyev bu Bəyannamənin yeni Qars sazişi, yaxud onun yeni variantı kimi əlaqələndirilməsi məsələsinə də toxunaraq bildirib ki, hazırkı məqamda burada Qars sazişinin hər hansı bir inkişafından söhbət getmir: "Artıq biz burada tamamilə başqa siyasi və hüquqi institutlarının formalaşmasını görürük. Lakin istisna etmirəm ki, bu kimi yeni oyun qaydaları özündə Qars sazişi elementlərini göstərə bilər. Mənim baxışımca, mövcud halda rəsmi Ankaranın mövqeyi əsaslıq təşkil edir ki, o (Ankara) artıq Avropa İttifaqına, ya da başqa Alyansa daxil olmaq istəyini vacib hesab eləmir".

"İndi Türkiyənin özü makroregional siyasi institutunun subyekti hesab olunur ki, Şuşa bəyannaməsi onun formalaşmasında baza əsasına çevrilir", deyən Perenciyev hesab edir ki, Türkiyə-Azərbaycan ittifaqı Şuşa bəyannaməsinin nüvəsidir: "Yeni məşhur kəlamın fikrini dəyişərsək deyə bilərik ki, "Dağ Ərdoğana tərəf getmirsə, onda Ərdoğan özü həmin dağı yaradır".

## "Müvafiq Alyansın yaradılması açıq-aşkar Qərb xarakteri daşımayacaq"

Azərbaycanın növbəti addımı kimi, Rusiya ilə münasibətlərini inkişaf etdirməsi planında Bakı-Moskva-Ankara üçlüyünün möhkəmlənməsi mümkünlüyünə də toxunan rusiyalı hərbi ekspert bildirib ki, hadisələrin belə bir inkişaf variantını mümkün hesab edir: "Bununla yanaşı, müvafiq Alyansın yaradılması açıq-aşkar Qərb xarakteri daşımayacaq. Lakin onun anti-Qərb Alyansına çevrilməsi Qərbin özünün bənzər ittifaq qurması reaksiyasından asılı olacaq. Əlbəttə ki, ABŞ-dan. Amma burada Bakı-Moskva-Ankara üçlüyünün düzülüşünün vacibliyi barədə vurğulamaq yerinə düşərdi, əsasən isə iqtisadi məsələdə, həmçinin təhlükəsizliyin növbəti təminatı məsələlərində: terrorla mübarizə, kontrabanda, narkotrafik, sularda xilasetmə, digər xilasetmə və humanitar əməliyyatlarda bir əməkdaşlıq, hərbi-texniki əməkdaşlığın növbəti inkişafı, üç dövlətin hərbi idarələri arasında təhsil sahəsindəki əlaqələr".

## "Rusiya Ərdoğandan, Türkiyə isə Moskvadan kompromislər gözləyəcək"

Perenciyev razılaşma çərçivəsində "altılıq" formatının regionun yeni geosiyasi mühitinə təsiri, hərbi-siyasi ittifaqların inkişaf üçün sabitlik rolu oynaması məsələsinə də toxunaraq bildirib ki, müəyyən siyasi vektorda mövcud razılaşmalar sabitlik faktoru ola bilər: "Lakin Rusiyanın hərbi-siyasi eksperti kimi olaraq mən hesab edirəm ki, ciddi kompromislərə ehtiyac duyulacaq. Mövcud vəziyyətdə Rusiyada Ərdoğanın Krım məsələsində yumşalmasını, Ukrayna istiqamətində isə qayğılarının azalmasını gözləyəcəklər. Ehtimal edirəm ki, Türkiyə də rəsmi Moskvadan hər hansı kompromisləri gözləyəcək. Bu mənada regionda "altılıq" formatının yaranması üçün rəsmi Ankara tərəfindən cəlbedici iqtisadi imkanlar yaradılmalıdır. Misal üçün, Çin bənzər siyasi və iqtisadi ittifaqlar formalaşdırarkən bu cür edir".

**Rövşən RƏSULOV**

# Bakının xeyrinə dəyişən güc balansı

*İyunun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşündən sonra Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında imzalanan Şuşa Bəyannaməsi vacibliyinə, əhəmiyyətinə görə tariximizdə özünəməxsus yer tutur. Sonuncu Qarabağ müharibəsində qazanılan qələbənin ardınca bu bəyannamənin imzalanması ən uğurlu hadisədir və bu hadisə ölkəmiz üçün saysız-hesabsız perspektivlər, imkanlar deməkdir ki, bu da öz növbəsində dövlətimizin qüdrətinin daha da artması potensialından xəbər verir.*

Şuşa Bəyannaməsinin əsas müddəalarına görə, Tərəflərdən hərhansə birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, birgə məsləhətləşmələr aparılması, bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədi ilə BMT nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüslər həyata keçirilməsi, BMT nizamnaməsinə uyğun olaraq, bir-birinə lazımi yardım göstərməsi, silahlı qüvvələrin güc və ya idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyətinin təşkili nəzərdə tutulur. Bir sözlə, Qarabağda yerləşdirilən Rusiya sülhməramlılarının missiya müddəti başa çatdıqda artıq suverenliyimizi təhdid elementlərini bir daha zərərsizləşdirmiş olduq. Bəli, məhz qardaş ölkə Türkiyə ilə birgə buna nail olduq və bir millət iki dövlət olan ölkələrimizin rəhbərləri tərəfindən müttəfiqlik barədə imzalanan bəyannamə, Şuşa Bəyannaməsi ilə bunu mütləq şəkildə reallaşdırdıq.

Diqqətə çatdıraq ki, 1921-ci ildə imzalanan Qars müqaviləsi ilə Naxçıvanın təhlükəsizliyinin qarantı olan Türkiyə 100 il sonra, daha dəqiq desək, 2021-ci ildə Şuşa bəyannaməsi ilə bu dəfə Qarabağın təhlükəsizliyinin qarantı oldu. Belə demək mümkünsə, bir növ bununla Türkiyə ümumilikdə Azərbaycanın təhlükəsizliyinin qarantına çevrildi. Bu müttəfiqlik əlbəttə ki, həm də qardaş ölkə ilə münasibətlərin daha da yaxınlaşması baxımından da xüsusilə önəmlidir. Bələki, artıq bundan sonra iki ölkənin silahlı qüvvələri tərəflərdən birinin ərazi bütövlüyünə təhdid, yaxud müdaxiləyə qarşı birgə addım atılacaq, ölkələrimizin orduları hərbi arsenalın təminatından tutmuş təlimlərə qədər, bütün istiqamətlərdə birgə formalaşdırılacaq, hər iki ölkənin Milli Təhlükəsizlik Şurası mütəmadi olaraq birgə iclaslar keçirəcək və milli maraqların qorunması ilə bağlı birgə qərarlar verəcək, hətta Zəngəzur dəhlizinin açılması üçün də birgə səylər artırılacaq.

Qardaş ölkə ilə birgə imzalanan bəyannamə ilə bundan sonra bir növ Qarabağda sülhməramlı kontingenti olan Rusiyanın əl-qolu da bağlanır. Daha dəqiq desək, bundan sonra Xankəndidə ruslar Azərbaycana qarşı hər-hansı təhdid yaratmaq barədə xam xəyallara belə düşə bilməzlər, çünki qarşılarında Azərbaycanla yanaşı, artıq Türkiyəni də görürlər. Belə bir vəziyyət isə Rusiya sülhməramlılarının bölgədən ən geci 5 il sonra çıxması və ermənilərin yaşaması üçün ayrılan bölgələrdə belə Azərbaycan idarəçiliyinin bərpa edilməsi anlamına gəlir.



Bütün bunlarla yanaşı, artıq Azərbaycan tərəfinin tələbləri, 10 noyabr razılaşmasının bütün bəndlərinin icrası ilə əlaqədar tələbləri əhəmiyyətli dərəcədə, yəni daha da sərtləşdirilə bilər. Erməni qoşunlarının çıxarılmasına qoyulan tələblərin bundan sonra daha kəskin xarakter alacağı heç bir şübhə doğurmur. Çünki, torpaqlarımızda separatçı rejimin və erməni terrorçuların neytrallaşdırılması məqsədilə mümkün anti-terror əməliyyatlarını Azərbaycan Türkiyə ordusu ilə birlikdə həyata keçirəcək və bunun artıq hüquqi əsası da var. Əslində, buna ehtiyac olmadan ermənilər özləri vəziyyəti başa düşəcəklər, daha doğrusu, artıq başa düşürlər və bundan sonra özləri öz çarələrinə qalmaq məcburiyyətindədirlər.

Hazırda ən aktual məsələlərdən birinin də məhz delimitasiya və demarkasiya olduğu sirr deyil. O da gizli deyil ki, ermənilər, erməni cəmiyyəti bu məsələlərdə öz maraqlarını, bundan irəli gələn narazılıqlarını da ortaya qoyurlar. Heç şübhəsiz ki, bu maraq və narazılıqlarını Fransa prezidenti Makronun timsalında dünya liderlərinə də çatdırmaqdan çəkinmirlər və bu işdə hansısa yardım umduqları da bəllidir. Amma, ermənilər artıq yaxşı başa düşürlər ki, bundan sonra onların bu cəhdləri də mənasızdır. Çünki, Azərbaycan-Ermənistan sərhədinin demarkasiyası məsələsində artıq Türkiyə də tərəfdir. Yəni, ermənilərin ruslar, fransızlar kimi böyük qardaşları bundan sonra yalnız özləri kimi mənasız ola bilərlər. Hətta, sərhəddə "beynəlxalq müşahidəçilərin" yerləşdirilməsi belə baş verərsə, Türkiyə də müşahidəçilər arasında olacaq və artıq bunu onların özləri də yaxşı başa düşürlər. Artıq başa düşürlər, daha doğrusu başa düşmək məcburiyyətindədirlər ki, sərhəddə Azərbaycanın maraqlarına qarşı yarana biləcək təhdidlər Türkiyənin iştirakı ilə neytrallaşdırılacaq.

Daha çox və xüsusi diqqətə layiq məqam ondan ibarətdir ki, ermənilərin yenə də Dağlıq Qarabağ məsələsində Minsk Qrupu formatını ortaya atması cəhdi artıq bundan sonra ən uğursuz cəhd, hətta ən uğursuz ideya hesab olunur. Əvvəla ona görə ki, bölgədə praktiki addımlarla Azərbaycanın sərhədləri daxilində yarana biləcək təhlükələri neytrallaşdıran Türkiyədir və bu qardaş dövlət, müttəfiqlik barədə Azərbaycanla birgə Şuşa Bəyannaməsi imzalayan ölkə, beynəlxalq siyasi platformada da bu cəhdlərə qarşı bir növ qalxandır. Şübhəsiz ki, Minsk Qrupunun timsalında hərhansı beynəlxalq qurum artıq bunu başa düşür və Şuşa Bəyannaməsindən sonra bunu başa düşmək məcburiyyətindədir.

Onu da xatırladaq ki, revanşist qüvvələrdən tutmuş, bəzi müxalifətçilərə qədər bir çox qruplar Qarabağda hansısa status arzusuna, xam xəyalına düşmüşdülər və hətta bu xəyalları barədə rus qardaşlarına da danışmışdılar. Bir növ, ermənilər ruslardan özləri üçün kiçik də olsa bir status umurdular. Ruslar isə onlara status verməsələr də, bəzən müəyyən ümidlər də olsa verirdilər. Məsələ burasındadır ki, Azərbaycan sərhədinin təhlükəsizliyinin qarantı olan müttəfiqlik bəyannaməsi ermənilərin Qarabağda "status" arzularının belə birdəfəlik dəfn edilməsi deməkdir. Çünki, ruslar özləri də başa düşürlər ki, birgə imzalanan bəyannamədən sonra status barədə nəinki söz verməki, hətta danışmaq belə absurd və gülünc səslənər. Hər dəfə ermənilərin status söz-söhbətlərini sonraya, gələcək zamana saxlayan, bununla da onlara ümid verən Rusiya bundan sonra erməni cəmiyyətinə bu statusu, status barəsində vədi belə verə bilməyəcək ki, bunu onlar özləri də başa düşürlər. Təkcə ruslar, təkcə Rusiya deyil, indi hamısı başa düşür ki, Azərbaycana qarşı Cənubdan, Şimaldan və Qərbdən gələ biləcək bütün mümkün təhdidlərin qarşısında artıq rəsmi olaraq Şuşa Bəyannaməsi, qardaş ölkə, Türkiyə ilə müttəfiqlik dayanır.

Bir sözlə, Şuşa Bəyannaməsi Azərbaycan və Türkiyə üçün yeni dövrün astanasıdır. Cəsarətlə deyə bilərik ki, Qarabağda və bütün bölgədə güc balansı Bakının xeyrinə dəyişdi. Çünki, Rusiya və Fransanın timsalında hər zaman Qarabağ əraziləri ilə bağlı məsələlərə yerliyersiz qarışan ölkələr belə öz hesablarını götürdülər. Bir zamanlar bölgədə ərköyünlük edən ermənilər də, onlara havadarlıq edən ruslar da, erməni dəyirmanına su tökən fransızlar da geri çəkilmək məcburiyyəti qarşısındadırlar və məhz bu səbəbdən güc balansında dəyişiklik, daha dəqiq, Azərbaycanın xeyrinə dəyişiklik danılmazdır.

***İnam Hacıyev***

# Polkovnik: "Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə hərbi-strateji əməkdaşlığının perspektivləri baxımından mühüm əhəmiyyət kəsb edir"

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi iki ölkə arasında hərbi-strateji əməkdaşlığın perspektivləri baxımından mühüm əhəmiyyət kəsb edir. Bu bəyannamə ilə qardaş ölkələrimiz bütün istiqamətlərdə əməkdaşlığını gücləndirəcək, birgə fəaliyyətlər üzrə illik və perspektiv planlar hazırlayacaqlar. Hər iki qardaş dövlət kadr hazırlığında, təlimlərdə, hərbi texnologiyaların inkişafında, hərbi-elmi tədqiqatlar sahəsində birgə fəaliyyət göstərəcək, hərbi sənayenin inkişafında bir-birinə dəstək olacaq, bir millət kimi müştərək planlar quraraq, qarşıda qoyulan hədəflərə bir yerdə nail olacaqlar.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində ehtiyatda olan polkovnik, hərbi ekspert Şair Ramaldanov Şuşa Bəyannaməsinin hərbi-strateji cəhətdən təhlili, əhəmiyyəti barədə danışarkən deyib.



Ehtiyatda olan polkovnik xatırladıb ki, Şuşa Bəyannaməsinə görə tərəflər müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn şəxsi heyət mübadiləsi, birgə təhsil və təlimlərin keçirilməsini, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılmasını, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığı və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin olunmasını təşviq edəcəklər. Azərbaycan və Türkiyə digər dost dövlətlərin orduları ilə birlikdə hərbi təlimlərin keçirilməsini dəstəkləyəcəklər.

Şair Ramaldanov bildirib ki, bəyannamədə tərəflərin dəniz, hava və kosmos sahələrində qarşılıqlı texnologiya mübadiləsini həyata keçirərək müştərək qabiliyyətlərin inkişaf etdirilməsi məqsədilə birgə layihələrin yerinə yetirilməsini təşviq edəcəkləri və qarşılıqlı müdafiə sənayesi texnologiyalarının inkişaf etdirilməsinə müsbət töhfə verəcəkləri vurğulanır. Eləcə də, iki qardaş ölkənin sahib olduqları silah və sursatla təchiz edəcəyi, onların istehsal texnologiyalarını qarşılıqlı şəkildə təşviq edəcəyi və hazırda onların ölkələrində mövcud olmayan istehsal sahələrinin yaradılmasını, iki ölkənin müdafiə sənayesi qurumlarının texnologiyalar, hərbi təyinatlı məhsullar və xidmətlər sahəsində daxili və beynəlxalq bazarlarda əməkdaşlıq etməsini dəstəkləyəcəklər.

Bəyannamədəki bu məsələlərə münasibət bildirən hərbi ekspert məlumat verib ki, Azərbaycan və Türkiyə şəxsi heyət mübadiləsi, kadr, silah-sursat, hərbi sənaye sahəsində əməkdaşlıq edir. Bu sənəd ikitərəfli münasibətlərin ən yüksək səviyyədə qanun çərçivəsinə salınmasıdır. İllik plan əsasında hər iki ölkənin nümayəndələrinin hərbi məktəblərdə iştirakı və digər məsələləri əhatə edən geniş perspektivli tədbirlər hazırlanacaq. Kadr hazırlığı məsələsində istər hərbi liseylərdə, istər Türkiyədəki hərbi məktəblərdə və akademiyalarda Azərbaycandan olan nümayəndələr daim iştirak edirlər. Azərbaycana qayıdan çoxsaylı məzunlarımız da var. Hərbi sənaye sahəsində birgə layihələr mövcuddur. Bu bəyannamə imzalananadək isə həm Azərbaycan, həm də Türkiyədə bütün bu məsələlərə bağlı böyük iş aparılıb. Artıq bu sahədə hüquqi baza tam şəkildə formalaşıb.

"Şuşa Bəyannaməsinin imzalanmasından sonra iki qardaş ölkənin dövlət başçıları bəyan ediblər ki, Azərbaycan və Türkiyə arasında münasibətlər artıq ən yüksək mərhələyə gəlib çatıb. Qeyd edim ki, bəyannamədə müştərək maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsinin zəruriliyi ifadə edilir. İki dövlət arasında bu və digər məsələlərin uzlaşdırılması, hərbi sənaye sahəsi, təhlükəsizlik məsələləri ilə bağlı sənədlərə dair Türkiyənin və Azərbaycanın qanunverici orqanlarında artıq qərar qəbul olunub. Bütün hazırlıqlar yekunlaşdıqdan sonra Şuşa Bəyannaməsi imzalanıb. Azərbaycan ilə Türkiyə hər iki ölkədə birgə çoxsaylı təlimlər keçirib. Hər iki ölkənin müdafiə nazirləri təlimlərə baxıblar. Bütün sahələrdə birgə fəaliyyət tədbirləri artıq sınaqdan keçib. Bu bəyannamə onu göstərir ki, artıq iş prosesinə başlanılıb", - deyə hərbi ekspert əlavə edib.

# Antimilli ünsürlərin dəyişməz siması: Vicdansızlıq

*Daxildəki və xaricdəki anti-Azərbaycan qüvvələrin sosial şəbəkələrdəki paylaşımları onların vətəndaşlıq təəssübkeşliyindən nə qədər uzaq, simasız olduqlarını açıqlayır*

***44 günlük İkinci Qarabağ müharibəsinin tariximizə yazdığı Zəfər harada yaşamasından asılı olmayaraq torpaq, Vətən sevgisini hər şeydən üstün tutan azərbaycanlılarda, dost ölkələrdə böyük sevinc, qürur hissi yaratdığı halda "sapı özümüzdən olan baltalar"ın yenə də ənənələrinə sadiqlik nümayiş etdirərək, Qələbəmizə qara eynəkdən baxmaları onların nə qədər simasız, şəxsi ambisiyalarının qulu olduğunu nümayiş etdirir. Hər zaman yazılarımızın mahiyyətində dayanan bir məqamı yenə də təkrarən qeyd etmək istərdik ki, illərdir müxalifətçilik anlayışının mahiyyətini dərk etməyən radikal ünsürlər hələ də reallıqla barışmaq istəmirlər ki, xalq onları siyasi səhnədə görmək istəmir, tarixin zibilliyinə çoxdan atıb.***



İkinci Qarabağ müharibəsi zamanı dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi siyasətə 50-dən artıq siyasi partiyanın dəstək olması, bunu öz bəyanatlarında ifadə etmələri ölkəmizdə vətəndaş həmrəyliyinin, siyasi dialoq mühitinin mövcudluğunu təsdiqlədi. Bunun ardınca Yeni Azərbaycan Partiyasının VII qurultayında 6 siyasi partiyanın YAP-a qoşulması barədə qərarı da həyata keçirilən siyasətə dəstəyin göstəricisi kimi dəyərləndirildi. Yenə də bu proseslərdən kənarda qalan radikal ünsürlər və xaricdəki əlaltıları oldu.

Vətənpərvərlik hisslərindən uzaq, şəxsi maraqlarının əsiri olan bu ünsürlər sosial şəbəkələrdə paylaşımları ilə ictimai qınağı birə on qat artırdılar. Bu gün də həmin çirkin ənənələrini davam etdirməkdədirlər.

Yarandığı gündən xaricin layihəsi olduğu açıqlanan, xarici anti-Azərbaycan qüvvələrin göstərişləri əsasında idarə edilən, fürsət düşdükcə Azərbaycanın demokratik imicinə zərbə vurmaq üçün küçə yürüşlərinə, aksiyalara can atan "Milli Şura"çıların rəhbəri Cəmil Həsənli "ziyalı" adına ləkə gətirən açıqlamaları ilə gündəmdədir. Tarixçi alimin istər Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində addımların atıldığı, istərsə də 44 günlük Vətən müharibəsi, istərsə də postmüharibə dövründə Azərbaycan həqiqətlərinin təbliğinə dəstək olmaq əvəzinə uğurlarımıza kölgə salmaq cəhdi ictimaiyyətdə böyük narazılıqlar yaratmaqla yanaşı, bələlərinin Azərbaycan xalqı adından danışmağa üzləri olduğunu böyük təəssüf hissi ilə qeyd edirlər. Vətən müharibəsində Zəfərimizdə dövlətimizin başçısı İlham Əliyevin liderliyini, bu gün qalib ölkənin qalib Sərkədəsi kimi dünyada nüfuz qazanmasını qısqanclıqla qarşılayan cəmil həsənlilər unudurlar ki, bugünkü Azərbaycan, Azərbaycan xalqı Birinci Qarabağ müharibəsi dövrünün Azərbaycanı, Azərbaycan xalqı deyil. Ötən müddət ərzində ölkəmiz ulu öndər Heydər Əliyevin dahiyanə uzaqgörənliklə müəyyənləşdirdiyi siyasətin və son 17 ildə Prezident İlham Əliyevin bu xətti uğurla davam etdirməsi nəticəsində ən yüksək zirvələri fəth edir. Bütün sahələrdə təcrübəsi nümunə olan Azərbaycanın diplomatik mübarizədə qələbəsi, möhkəm hüquqi bazaya əsaslanan mövqeyi döyüş meydanında Zəfərimizə geniş yol açdı. Cəmil həsənlilərin bu gün Zəfərimizi böyük qısqanclıqla qarşılamaları başadüşüləndir. Azərbaycan həqiqətlərinin təbliğində, diplomatik mübarizədə qələbəmizdə bir "tarixçi alim" kimi zərrə qədər əməyinin olmamasından utanc hissi keçirir. Amma bu da real görünmür. Əməllərindən utanc hissi keçirən dövlət maraqlarının qorunmasında vətəndaşlıq təəssübkeşliyinin nə qədər böyük rola malik olduğunu dərk edər, cılız hisslərlə yaşamaz, ölkəmizin uğurlarından qürur duyar, gənc nəslin milli ruhda tərbiyəsinə öz töhfəsini verər. Amma bu gün böyük qürur hissi ilə qeyd edirik ki, Azərbaycan gəncləri sağlam düşüncəli gənclikdir, belə ünsürlərin apardıqları qərəzli təbliğatlara uymur, Vətən, torpaq sevgisini hər şeydən üstün tutaraq 30 ilə yaxın işğal altında qalan torpaqlarımızı 44 gündə azad etməklə xalqımızın necə yenilməz, məğlubedilməz xalq olduğunu nümayiş etdirdi.

Cəmil həsənlilər hazırkı dövrün informasiya müharibəsi dövrü olduğunu nəzərə alıb illərin erməni sevgisindən yaxa qurtara bilsəydilər, mənfur düşmənin əsl simasının təqdimatında paylarının olmasına səy göstərərdilər. Amma bu da gözlənilən deyil. Əbəs yerə deyilmir ki, "qozbeli qəbir düzəldər." Şəxsi maraqlarının əsiri olan cəmil həsənlilərə bu reallığı da xatırlatmaq istərdik ki, milyonlara satdıqları mənəviyyatlarını bərpa etmək üçün belə vəsaitləri külli miqdarda xərcləsələr də mümkün deyil. Mənəviyyatını, dövlətinin maraqlarını pula satanlar Azərbaycan vətəndaşı ola bilməz. Xalqımızın zəngin tarixi, milli-mənəvi dəyərləri vardır. Cəmil Həsənli kimiləri ancaq və ancaq xaricdən gələn ssenarilərə uyğun olaraq Azərbaycanın, Azərbaycan hakimiyyətinin nüfuzuna xələl gətirmək düşündürür.

Müsavat Partiyasının başqanı Arif Hacılı yazdığı statusuna olan münasibətdən danışır. Qaçqınların qaytarılmaması məsələsini qeyd edib.

Arif Hacılı görünür işğaldan azad edilmiş ərazilərimizdə aparılan quruculuq və bərpa işlərindən, Böyük Qayıdışın reallaşdırılmasına xidmət edən addımlardan "xəbərsizdir". Hazırda dövlətimizin həyata keçirdiyi siyasətin əsasında sahibinə qayıdan torpaqlarımızda bərpa və quruculuq işlərinin həyata keçirilməsi, 30 ilə yaxın torpaq həsrəti, niskili ilə yaşayan soydaşlarımızın Böyük Qayıdışının tezləşdirilməsi dayanır. Dövlətimizin başçısı İlham Əliyevin işğaldan azad edilmiş ərazilərimizə hər bir səfəri yeni sosial obyektlərin təməlinin qoyulması ilə yadda qalır. Hazırda "Ağıllı şəhər" və "Ağıllı kənd" layihələrinin icrasına başlanıb ki, bu da öz növbəsində Böyük Qayıdışın qısa zamanda reallığa çevrilməsinə xidmət edir.

AXCP sədri Əli Kərimli yenə də ictimai fikri çaşdırmaq yolunu tutmaq "bacarığını" nümayiş etdirməyə çalışır. Özünü "vətənpərvər" göstərməyə çalışan əli kərimlilər 44 günlük İkinci Qarabağ müharibəsi dövründə seyrçi mövqedə dayanmağına hansı bəraəti qazandırır? Dövlətimizin torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canından keçən şəhidlərimizin ailələrinə, qazilərimizə diqqət və qayğısı göz önündədir. Cənab İlham Əliyevin Sərəncamı əsasında 27 sentyabr Anım Gününün, 8 noyabr Zəfər Gününün təsis edilməsindən sonra dövlətimizin başçısının bu günədək imzaladığı sənədlərə diqqət yetirsək böyük əksəriyyətinin bu kateqoriyadan olan vətəndaşlara diqqət və qayğıya həsr olunduğunu görərik. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, 10 noyabr üçtərəfli razılaşmasının imzalanmasından sonra dövlətimizin başçısı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın ilk görüşünün 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan həbçilərlə olması də təsadüfi deyildi. Dövlətimizin başçısı bildirmişdir ki, gəlmişəm ki, şəxsən sizə öz təşəkkürümü bildirim, təbrik edim. Mənim təbrik etdiyim birinci insanlar sizsiniz və sizin simanızda bütün qəhrəman döyüşçülərimizdir. Gəlmişəm deyim ki, mən hər zaman sizinlə bir yerdə olacağam, mənə arxalana bilərsiniz.

AXCP üzvü Fuad Qəhrəmanlının statusu Əli Kərimlinin ssenarisinin davamıdır. Bu bədnam status Dövlətimizin başçısının rəhbərliyi ilə tarixə qovuşan Dağlıq Qarabağ münaqişəsinin həllinin dağıdıcı müxalifət düşərgəsində necə qısqanclıqla qarşıladığını qabarıq şəkildə büruzə verir. Ölkə Prezidentinin tarixi Zəfərinə kölgə salmağa çalışan AXCP təmsilçisi ictimai qınaqla üz-üzədir.

Siyasi şərhçi Ərəstun Oruclu öz paylaşımı ilə ictimaiyyətin narazılığına və sərt reaksiyasına səbəb olur. Dövlətimizin humanizm siyasətini öz maraqlarına uyğun təhlil edən ərəstunlar həqiqətə həqiqət gözü ilə baxsalar humanizmin mahiyyətini düzgün şərh edərlər.

Bir sözlə, bu ünsürlərin sosial şəbəkələrdə paylaşımları onların xarici himayədarlarından aldıqları sifarişlərin təqdimatıdır. Xalqa deyil, xarici anti-Azərbaycan dairələrə arxalanan, onların ssenariləri əsasında durub oturan bələlərindən ölkəmiz haqqında müsbət fikir gözləmək sadəlövhlük olar. Xalq onlara lazım olan dəyəri verib-Tarixin zibilliyi. Bu qiymətdən dərs almaq əvəzinə, daha da anti-Azərbaycan təbliğatı aparmaq sağalmaz xəstəliklərinə işarədir. Bu xəstəliyin adı xəyanətkarlıq, mənəviyyatın itirilməsi, ən əsası satqınlıqdır.

***Yeganə Cəlilqızı***

## "Dağıdıcı müxalifət xaricdə oturub, söyüş söyənlərlə iş birliyindədir"

"Uzun illərdir biz müşahidə edirik ki, kənarda sığınacaq tapan bir qrup insan Azərbaycanın əleyhinə sosial şəbəkələrdə müxtəlif fikirlər və şüarlar səsləndirməkdədir. Bu insanların artıq anti-Azərbaycan qüvvələri tərəfindən idarə olunduğunu və onlardan maliyyə alındığı dəfələrlə müxtəlif mənbələrdən, hüquq mühafizə orqanlarından və təhlükəsizlik orqanları tərəfindən təsdiqlənib". Bunu SİA-ya açıqlamasında Qaçqınların və Məcburi köçkünlərin iş üzrə Dövlət Komitəsi yanında ictimai Şuranın sədri Anar Xəlilov deyib.

Onun sözlərinə görə, xəyanət yolu tutan insanların bir amalı və məqsədləri var: " Əsas məqsədləri aldıqları maliyyənin müqabilində Azərbaycan dövlətinin bütün uğurlarına kölgə salmaqdan ibarətdir. Amma hər zaman həmin şəxslərin bu cəhdləri fiaskoya uğrayıb və heç nəyə nail olmayıblar. Onların nə deməsindən və nə etməsindən asılı olmayaraq onsuzda xalqımız onlara əhəmiyyət vermirdi, çünki xalqımız həqiqəti görürdü. Onlara isə ancaq boş-boş danışmaq qalır. Lakin bunlar yenə də öz çirkin hərəkətlərindən əl çəkmirlər".

A.Xəlilov bildirib ki, Azərbaycan müxalifətinin bir qolu olan dağıdıcı müxalifət xaricdə oturub, söyüş söyən şəxslərlə iş birliyindədir: "Demək olar ki, bunlar birgə fəaliyyət göstərirlər. Uzun illərdi ki, dağıdıcı müxalifətin xaricidən maliyyələşməsini hər kəs bilir. Yəni qüvvələr xaricidəki müxtəlif fondlar tərəfindən maliyyələşirlər. Lakin yenə də bu insanlar sosial şəbəkələrdə birgə fəaliyyət göstərirlər və məqsədləri də Azərbaycanın uğurlarına kölgə salmaqdır. Çünki onların bizim uğurlarımızı qısqanırlar, həzm edə bilmirlər. 44 günlük Vətən Müharibəsi bir daha sübut etdi ki, Azərbaycan güclü və qüdrətli dövlətdir. Bunu istər yerli, istərsə də xarici məkrli qüvvələr bilirlər".

***Gülyana***

## Paşinyan koalisiyalı hökumət formalaşdırmağa cəhd edəcək

"Ermənistanda seçkiqabağı siyasi gərginlik getdikcə daha da dərinləşməkdədir. Siyasi qüvvələrin bir-birlərinin ünvanına ağır ittihamlar irəli sürməsi mövcud vəziyyətin xaotikliyindən xəbər verir. Cəmiyyətdə isə məyusluq və inamsızlıq ruhu hakimdir. Keçirilən rəy sorğuları onu göstərir ki, hələ də əhalinin böyük bir hissəsi heç bir siyasi qüvvəyə inanmır. Əlbəttə, bunun özü Ermənistanı yaxın gələcəkdə gözləyən təhlükələrdən xəbər verir". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Ceyhun Əhmədli deyib.



Ekspertin sözlərinə görə, ümumiyyətlə, gedişat onu göstərir ki, Paşinyan seçkilərin nəticələrinə əsasən, təkbaşına hakimiyyət qura bilməyəcək: "Böyük ehtimalla o, mandat qazanmış digər blok və partiyalarla koalisiyalı hökumət formalaşdırmağa cəhd edəcək. Rəy sorğuları onu deməyə əsas verir ki, Paşinyandan sonra ən çox reytinqi olan siyasi qüvvə Koçaryanın rəhbərlik etdiyi blokdur. Digər partiya və blokların reytinqinin çox aşağı olduğu müşahidə olunmaqdadır. Beləliklə, seçkilərin ikinci raundu elan olunmasa, Paşinyan Koçaryanla hakimiyyəti bölüşmək məcburiyyətində məcbur qala bilər. Əks halda ikinci tur elan olunacaq ki, bu da Ermənistanda böhran və xaosun daha da dərinləşməsinə gətirib çıxaracaq".

Politoloq bildirib ki, sorğularda ortaya çıxan səs faizlərinə əsasən deyə bilərik ki, erməni cəmiyyətində siyasi qütbləşmə mövcuddur: "Bir qütbdə Paşinyan, digərində isə Koçaryan dayanır. O da bir həqiqətdir ki, Paşinyanla Koçaryanın koalisiyalı hakimiyyəti dayanıqlı və uzunmüddətli ola bilməz. Bir sözlə, bu ssenari reallaşsa Ermənistanda ciddi hakimiyyət böhranının yaşanacağı qaçılmazdır".

C.Əhmədli vurğulayıb ki, erməni xalqı hazırda pislərin içərisində daha az pis olanı seçmək zərurəti qarşısındadır: "Nə "demokratiya və insan haqları" şüarları ilə hakimiyyətə gələn Paşinyan, nə də bundan əvvəl ölkəni kriminal üsullarla idarə edən Koçaryan erməni xalqına nicat yolu vəd edə bilmir. Ermənilər də bunun fərqindədir. Ona görə də bütün sorğularda əhalinin böyük bir hissəsi heç bir siyasi qüvvəyə inanmadığını bildirir, ya da mövcud seçimlər qarşısında qərarsız olduğunu ifadə edir".

***Aysel Məmmədova***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Ərdoğan: Bakı, Moskva və Ankara regionu çiçəkləndirməyə qərar verib

***Dünən ölkəmizin və regionumuzun tarixində əlamətdar hadisələrin baş verdiyi gün kimi tarixə düşdü. Bu haqda xarici mediada çoxsaylı materiallar dərc edilib. Onlardan birini- Moskva-Baku portalında yayımlanan verilişi mətn formasında oxucularımıza təqdim edirik.***

## Bir dostun tarixi səfəri

Dünən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, həyat yoldaşı Əminə Ərdoğanla birlikdə Azərbaycan Respublikasına 2 günlük səfərə gəldi. Azərbaycan Prezidenti İlham Əliyev türkiyəli həmkarı ilə Füzuli rayonunda görüşdü, sonra birlikdə Şuşa şəhərinə getdilər.

Qeyd edək ki, Türkiyə Cümhuriyyətinin lideri Azərbaycanın azad edilmiş ərazilərini ziyarət edən ilk əcnəbi prezidentdir, bu səbəbdən jurnalistlər onun ziyarətini tarixi adlandırırlar. Günortadan sonra Şuşada Azərbaycan və Türkiyə prezidentlərinin təkbətək görüşü keçirilib. Danışıqlardan sonra liderlər Şuşa Bəyannaməsini imzaladılar ki, bu da Azərbaycan liderinə görə iki ölkə arasında bütün əməkdaşlıq sahələrini əhatə edir.

"Bu gün imzalanmış ortaq Şuşa Bəyannaməsi əlaqələrimizi daha yüksək səviyyəyə qaldırır. Bəyannamənin adı "Müttəfiq münasibətləri haqqında"dır. Bu, öz sözünü deyir. Bu gün keyfiyyətcə yeni əlaqələr qurduq və bu bəyannamənin bütün müddəaları bundan sonrakı əməkdaşlığımızın zəmanətidir. Çıxışlarında dəfələrlə Türkiyə ilə Azərbaycanın qlobal miqyasda birbirinə ən yaxın ölkələr olduğunu bildirmişəm, bizi birləşdirən və bu birliyi təmin edən amillər çoxdur. Bunlar ilk növbədə, tarix, mədəniyyət, ortaq etnik köklər, dil, din, milli dəyərlər, maraqlar və xalqların qardaşlığıdır"- İlham Əliyev dedi.

Öz növbəsində, Türkiyə lideri, tezliklə Şuşada Türkiyə Respublikası konsulluğunun açılacağını söylədi. Ərdoğan çıxışında iki ölkənin hərbi və müdafiə sahəsindəki təmaslarına da toxunaraq "gələcəkdə müdafiə sahəsindəki əlaqələrin yeni münasibətlərə çevriləcəyini" qeyd etdi.

Bundan əlavə, Ərdoğan, Şərq-Qərb dəhlizi daxilində bütün region ölkələrinin istifadə edə biləcəyi Zəngəzur dəhlizinin əhəmiyyətini vurğuladı. Bakı, Moskva və Ankaranın regionu çiçəkləndirməyə qərar verdiklərini vurğuladı.

"Bu platformaya əsaslanaraq bölgəni çiçəkləndirmək istəyirik. Əliyev və mən bunun üçün qərarlıyıq. Rusiya Prezidenti Vladimir Putin də bölgəyə sülh gətirmək üçün lazımi səylər göstərməyə hazırdır".

Türkiyə lideri, Ankaranın Ermənistanla münasibətləri normallaşdırmaq üçün özündən asılı olanları edəcəyini bildirdi və İrəvanı bölgədəki altıtərəfli platforma çərçivəsində əməkdaşlıq imkanlarından istifadə etməyə çağırdı. Eyni zamanda, Ərdoğan iki dövlət başçısının Azərbaycanın mədəniyyət paytaxtından göndərdikləri mesajların əhəmiyyətinə də işarə etdi.

Eyni zamanda, Türkiyə liderinin sözlərinə görə, Bakı və Ankara üçüncü ölkələrdə neft və qaz layihələrinə ortaq investisiyalar qoymağın mümkünlüyünü müzakirə edirlər və Azərbaycan və Türkiyə addım-addım 2023-cü ilədək qarşılıqlı ticarətin 15 milyard dollara çatmasına yaxınlaşırlar.

Bu gün Azərbaycan və Türkiyə liderləri Şuşada birlikdə gəzdilər. Əlavə edirik ki, bu gün Şuşada Azərbaycanın 1-ci xanımı Mehriban Əliyeva Türkiyənin 1-ci xanımı Əminə Ərdoğanla görüşdü.

## Məhkumları xəritələrlə dəyişdirdilər

Diversant kimi həbs olunmuş erməni hərbçilərinin Azərbaycan-Gürcüstan sərhədində təhvil verilməsinin videokadrları internetdə yayılıb. Xatırladaq ki, rəsmi Bakı Ağdam rayonundakı minalanmış ərazilərin xəritələri müqabilində 15 erməni əsgərini İrəvana qaytardı. Hərbçilərin təhvil verilməsi günü Ermənistanın baş naziri vəzifəsini icra edən Nikol Paşinyan onların adlarını Feysbuk səhifəsində yayımladı. Azərbaycan Xarici İşlər Nazirliyi tutulan erməni hərbçilərinin Azərbaycanın azad edilmiş bölgələrindən birinin mina xəritələrinin alınmasına cavab olaraq təhvil verildiyini təsdiqlədi.

Xarici İşlər Nazirliyi, baş nazir İrakli Qaribaşvilinin rəhbərlik etdiyi Gürcüstan hökumətinin humanitar aksiyanın həyata keçirilməsində dəstəyini qeyd etdi:

"Əldə edilən razılığa görə, 12 iyun 2021-ci ildə, Ermənistan tərəfindən Ağdam rayonuna yerləşdirilmiş 97 min tank əleyhinə və piyada əleyhinə minaların xəritələrini təqdim etməsi müqabilində, həbs olunan 15 erməni Gürcüstan nümayəndələrinin iştirakı ilə Azərbaycan-Gürcüstan sərhədində Ermənistana təhvil verildi"- Xarici İşlər Nazirliyi bəyan edib.

Azərbaycan Xarici İşlər Nazirliyi, mina xəritələrinin əldə edilməsinin mina təmizlənməsi mütəxəssisləri də daxil olmaqla on minlərlə Azərbaycan vətəndaşının həyatını və sağlamlığını xilas edəcəyini və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ağdamda başlatdığı yenidənqurma layihələrini və məcburi köçkünlərin geri qaytarılmasını sürətləndirəcəyini əlavə etdi.

Xatırladaq ki, 2-ci Qarabağ müharibəsi bitdikdən sonra Prezident İlham Əliyev dəfələrlə minalanmış ərazilərin xəritələrinin verilməsini tələb etmişdi, lakin Ermənistan xəritələri təhvil verməmişdi, bu səbəbdən azad edilmiş ərazilərdə həm hərbi, həm də mülki şəxslərin minaya düşmə halları mütəmadi olaraq baş verirdi.

Azərbaycan Respublikası Baş Prokurorluğunun verdiyi məlumata görə, 10 noyabr 2020-ci il tarixindən 5 iyun tarixinədək Azərbaycanın azad edilmiş ərazilərində mina partlaması nəticəsində 7 hərbi qulluqçu və 20 mülki şəxs həlak olub, daha 86 hərbi qulluqçu və 29 mülki şəxs yaralanıb.

## Qurtuluş və birlik günü

15 iyunda Azərbaycanda Milli Qurtuluş Günü qeyd olundu. 28 il əvvəl bu gün ümummilli lider Heydər Əliyev Milli Məclisin iclasında dövlətçiliyin gələcək inkişafı üçün yeni strategiya elan etdi və bu gün Azərbaycan Respublikasının tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu. Bu tarixdə xalqın istəyi ilə Heydər Əliyev 2-ci dəfə hakimiyyətə qayıtdı və Ali Şuranın sədri seçildi. Sonra ictimai və siyasi sabitlik bərpa edildi, vətəndaş müharibəsi təhlükəsi aradan qalxdı və Azərbaycanın inkişafı sürətlə başladı. Azərbaycan dünya arenasında yeni səviyyəyə çıxdı.

1997-ci ildə deputatlar 15 iyunun Azərbaycanın Milli Qurtuluş Günü elan edilməsi təklifi ilə çıxış etdilər. Bayramla əlaqədar olaraq Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva sosial şəbəkələrdə Azərbaycana sabitlik və birlik diləyən yazılar dərc etdilər.

## Yeni hava limanından uçuş

Qarabağdakı Füzuli şəhərinin yeni hava limanından ilk uçuş bu ilin sentyabrında başlayacaq. Bu hava limanının tikintisi ilə məşğul olan şirkətin baş direktoru Azərbaycan Prezidenti İlham Əliyevlə söhbətində bildirdi. Azərbaycanın Füzuli şəhərindəki hava limanı 2021-ci ilin sonuna qədər tam istismara verilə bilər. Bu ərəfədə Azərbaycan Prezidenti İlham Əliyev Füzuli rayonuna səfəri çərçivəsində Füzuli Beynəlxalq Hava Limanının tikinti işlərinin gedişi ilə tanış oldu.

Beynəlxalq hava limanının inşasına 2021-ci ilin yanvarında başlanıb. Uçuş-enmə zolağının uzunluğu 3000 metr, eni 60 metr olacaq. Hər iki tərəfdən enişlər təmin edilir. Bu günə qədər uçuş-enmə zolağının və perronun döşənməsi üçün torpaq işləri tamamlanıb. Perron 60 min kvadrat metr ölçüsündədir və təxminən 8 Airbus A320 təyyarəsini qəbul edə bilər. 170 maşınlıq park yeri də olacaqdır. Proqrama əsasən, burada ilk sınaq uçuşu sentyabrın 5-də reallaşacaq.

Bundan əlavə, Füzuli və Şuşa şəhərlərini hava limanı ilə birləşdirəcək bir yol inşa olunur. Füzulidəki hava limanı, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində Qarabağda inşası planlaşdırılan 3 hava limanından birincisi olacaq.

## Cinayətlərə görə cəza

Bakı hərbi məhkəməsi ərəfəsində Azərbaycana qarşı terror fəaliyyətində ittiham olunan Livan vətəndaşı Viken Eucekçyana hökm oxundu. Məhkəmə qərarı ilə cinayətkar 20 il həbs cəzasına məhkum edildi. Muzdlu ilk 5 il həbsxanada keçirəcək, qalan müddət isə ciddi rejimli koloniyada qalacaq.

İstintaqın materiallarına görə, 29 sentyabr 2020-ci ildə Beyrut sakini, 42 yaşlı Livan Respublikasının vətəndaşı Viken Eucekçyanın 2500 dollar maddi mükafat müqabilində işğal altındakı Azərbaycan ərazilərində hərbi əməliyyatlarda muzdlu kimi iştirak etmək təklifini qəbul etdiyi bilinir. Bu məqsədlə, həmin gün mütəşəkkil bir qrupun tərkibində digər şəxslərlə birlikdə Ermənistanın ərazisindən mühafizə olunan dövlət sərhədini nəzarət-buraxılış məntəqələri xaricindən keçərək digər muzdluların olduğu əraziyə gəlib. İstintaqın nəticələrinə görə, Viken Eucekçyana Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, "Hərbi qarşıdurmada və ya hərbi əməliyyatda muzdlu kimi iştirak", "Bir qrup şəxs tərəfindən əvvəlcədən qəsd yolu ilə törədilən terrorizm" maddələri ilə ittiham irəli sürülmüşdür.

## Vəziyyət həddən artıq gərginləşib

Erkən parlament seçkiləri ərəfəsində Ermənistanda vəziyyət qızışır. Yerevanda Paşinyanın tərəfdarları ilə müxalifət qüvvələri arasında dava-dalaş baş verir. Belə ki, "Çiçəklənən Ermənistan" partiyasının qərargahının işçiləri ilə müvəqqəti baş nazir Nikol Paşinyan tərəfdarları arasında mübahisəyə çevrilən və polis əməkdaşları tərəfindən ayrılmalı olan qarşıdurma baş verib.

Qeyd etmək lazımdır ki, Paşinyan özü seçkilərə 5 gün qalmış vəziyyəti istiləşdirir. Bir gün əvvəl, o, bütün vətəndaşları 21 iyun tarixində parlament seçkilərindəki qələbəsini qeyd etmək üçün İrəvanın Respublika Meydanına dəvət etdi. Paşinyanın özünə görə, bu tarix, onun dediyi kimi, "polad inqilabı"nın başlanğıcı hesab edilə bilər.

Xatırladaq ki, Lori yaşayış məntəqəsindəki təbliğat-təşviqat zamanı Paşinyana "polad mandat" təqdim olunmuşdu. Sonra müvəqqəti baş nazir, qalib gələcəyi təqdirdə "kadr poqromu" təşkil etmək istədiyini söylədi. Baş nazirin sözlərinə görə, məhz bu, ölkə vətəndaşlarının tələb etdiyi şeydir.

Eyni zamanda, hazırda erməni seçicilərin səsi uğrunda mübarizə gedir. GALLUP Beynəlxalq Assosiasiyasının bu yaxınlarda dərc etdiyi rəy sorğusunun nəticələrinə görə, Robert Köçəryanın rəhbərlik etdiyi "Ermənistan" parlament bloku, müvəqqəti baş nazir Paşinyanın rəhbərlik etdiyi "Vətəndaş sazişi" partiyasından daha yüksək göstərici qeydə aldı. Yeni sosioloji sorğunun nəticələrinə görə, respondentlərin 24,1%-i "Ermənistan" blokuna, 23,8% -i "Vətəndaş Sazişi" partiyasına səs verməyə hazırdır.

*Tərcümə - Elçin Bayramlı*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# Səs

Son səhifə

17 iyun



# Yağlardan təkrar istifadə orqanizmə mənfi təsir göstərir

*Yağlardan dəfələrlə istifadə edərək yemək hazırlanmasının zərərli xüsusiyyətləri barədə danışan həkim-diyetoloq Ləman Süleymanova AZƏRTAC-a deyib: “İstinin təsirindən yağların parçalanması nəticəsində sərbəst radikallar əmələ gəlir və onlar kanserogen xassəyə malik olaraq orqanizmdə bəzi şiş xəstəliklərinin yaranmasına səbəb olur. Təkrar istifadə zamanı parçalanma-birləşmə reaksiyaları baş verir: Bir neçə dəfə qızdırılıb soyudulmuş yağlarla qidalananda yaranan sərbəst radikallar orqanizmdə gedən müəyyən proseslərə mənfi təsir göstərir”.*

Onun dediyinə görə, yağların təkrar istifadəsi hətta qarşısıalınmaz proseslərin əmələ gəlməsinə də səbəb ola bilər. Yağlardan təkrar istifadə onunla qidalananlarla yanaşı, ondan yemək hazırlayanlarda da xəstəliklər yaradır. Ona görə də yeməkləri yağda bir dəfə bişirmək, təkrar istifadəyə yol verməmək lazımdır: “Yağların təkrar istifadəsi zamanı nişastalı qidalar çox qızardılarsa, onların üst hissələrində zəhərli aldehidlər yaranır. Həmin maddələr gözün və tənəffüs yollarının selikli qişalarını güclü şəkildə qıcıqlandırır və funksiyasını zədələyir. Zəhərli maddələr daxili orqanlarda, xüsusilə sinir sistemi və qaraciyərdə ciddi fəsadlara səbəb olur”, - deyə həkim-diyetoloq əlavə edib.

Müasir dövrdə yağların əksəriyyəti kimyəvi üsullarla hazırlanır. Ona görə də orqanizmə zərər yetirilməməsi üçün onlardan təkrar istifadə yolverilməzdir.

# “Fənərbaxça”dan Edin Visca əməliyyatı!



***“Fənərbaxça” Serdar Dursunu heyətinə qataraq ilk transferini reallaşdırıb. SIA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, Sarı-mavilər transfer işlərinə bundan sonra da davam edəcəklərini düşünürlər.***

“Fənərbaxça” Super Liqada “Başakşehir”də oynayan Edin Visca ilə əlaqələrini genişləndirib. Oyunçu və klubu ilə təmaslarının sürətləndiyini qeyd edən “Fənərbaxça” rəhbərliyi bu transferin yaxın zamanda ictimaiyyətə açıqlayacağını bildirib.

***Ziya Hikmətoğlu***



# Özünüzü öyrənməyə həvəsləndirmək üçün 5 tövsiyə

***Mütəxəssislər inanırlar ki, gündə bir saat məşğul olmaqla gözəçarpan inkişaf əldə etmək mümkündür. SIA öyrənmək üçün lazım olan qaydaları təqdim edir:***

1. Özünüz üçün kiçik hədəflər qoyun. İş haqqında kiçik hədəflər qoyun məsələn, daha çox yerinə yetirildiyimizi hiss etməyimizə və bununla da motivasiyanı artırmağa kömək edəcək imtahan mövzularından birinə diqqət yetirmək.

2. İstirahət edin . Tədrisdə qısa fasilələr verməklə, düşüncənizi ayırmağa və oxumağa qayıtdıqda təzə və motivasiya olmağı bacaracaqdır. Fasilələrə əhəmiyyət verin.

3. Hədəfə diqqət edin. Diqqətinizi nail olmaq istədiyimiz nailiyyətə yönəldin

4. Özünüzü mükafatlandırın. özünüzü səyinizin eyni olmadığı günlərdən daha böyük bir mükafatla mükafatlandırın.

5. Öyrədiyiniz şeyin tətbiqi barədə düşünün. Öyrəndiklərimizi və düşündüklərimizi başa düşsək bunu necə tətbiq edə bilərik?, sizə verəcəyimiz motivasiya çox fərqli olacaq.

***Ayşən Vəli***

# Qubada narkotikaya görə ata və oğlu tutulublar

**Qubada narkotik tərkibli bitkiləri aqrotexniki qaydada qulluq edərək yetişdirən şəxslərə qarşı növbəti əməliyyat həyata keçirilib.**

**Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəllər Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə dəfələrlə məhkum olunmuş, rayon sakini Mirqasım Babayev və oğlu Kənan Babayev Quba Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıblar. Onların yaşadıqları evin həyətinə, istixanasına və taxıl sahəsinə baxış zamanı ümumi çəkisi 47 kiloqrama yaxın olan 110 çətənə bitkisi aşkarlanıb. Mirqasım Babayev ifadəsində oğlu Kənanla birgə həmin bitkilərə aqrotexniki qaydada qulluq edərək becərdiyini bildirib. Bundan başqa, saxlanılan şəxslərin yaşadıqları fərdi evinin zirzəmisindən çətənə bitkisindən kustar üsulla hazırlanmış 16 qram marixuana aşkar edilərək götürülüb.**



**Faktla bağlı Quba Rayon Polis Şöbəsində Cinayət Məcəllərinin 234.1-ci, 237.2.1-ci və 237.2.3-cü maddələri ilə cinayət işi başlanıb, istintaq araşdırmaları davam etdirilir.**

# Məşhur müğənni axtardığı sevgini tapdı!

Türkiyəli müğənni Yalın, sarışın bir gözələ aşiq olub. SIA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, Marmarisin məşhur tətil yeri olan Bozburunda lövbər ataraq gəmilərində görünən cütlüyün münasibətlərinə yeni başladığı öyrənilib. Yalın uzun müddətdir özəl həyatını ictimaiyyətdən kənarda yaşayır. Bu yaxınlarda daim obyektivlərdə əks olunan pop müğənnisi nəhayət axtardığı sevgini tapıb.

***Ziya Hikmətoğlu***



**Baş redaktor:**

**Bəhruz Quliyev**

**Baş redaktorun müavinləri:**

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc və SİA agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**